HƏYAT ŞƏMİ

# GECƏ GÖZLÜ HƏYAT

BAKI - 2009

ANAM AĞGÜL
MÜƏLLİMƏnin ƏZİZ
XATİRƏSİNƏ
İTHAF



***İnsanın xoşbəxtliyi***
***yaxşı valideynlərinin***
***olmasından başlayır...***
***Həyat***



## *DUA*

Yadına düşür,
orucunu göz yaşınla açdığın gün?
Samovarın sızıltısı salır yadına,
Qaynadıqca üşüdür səni…

## *ÖZÜN*

Yadına düşür,
QURAN oxuduğun gün?
Ramazan ayında.
Ağzın oruc, əlin kitablı,
dilin quranlı,
Opera və Balet Teatrında «itdiyin» gün?
QURAN oxuyarkən tapdın özünü.

## *SƏSİN*

Bismillah-ir-rəhman-ir-rəhim…
Səsin xoşuma gəlir,
sən QURAN oxuyanda,
Gözəl alınır səndə
boğaz samitləri-ayn da, ğayn da.
Boğazın əlif,
burnun ləm,
qaşların təşdid,
gözlərin hə yazıb,
Sən hülulsan, hülul.

## *ÜZÜN*

Üzün xoşuma gəlir,
Başında kələğayı,
Sən QURAN oxuyanda,
Kələğayı örtür gecəni,
doğur Ayı:
«Bismillah-ir-rəhman-ir-rəhim
Yəsin! Val-Quran-il-həkim…»
Ey insan, yandan baxıram,
Nur tökür simmetrik üzünün bu tayı,
Sən hilalsan, hilal.

## *GÖZÜN*

Sən QURAN oxuyanda,
gözün xoşuma gəlir,
Dioqram sətirlərdə gəzdikcə,
Ürək kimi döyünən kəlamları üzdükcə:
«ALLAH təkdir, O, nə doğmuş,
nə də doğulmuşdur,
Onun tayı-bərabəri də yoxdur».
-Ey məxluq, sənsə tək deyilsən,
Adəmin var, Həvvan var,
Sən doğulmusan, sən doğmusan,
Sən doğru yoldasan,
Sən doğalsan, doğal.

## *NƏFƏSİN*

İnanmağım gəlir tənasühə-
Ruhun ölməyib bir bədəndən
başqasına keçməsinə.
Nəfəsin xoşuma gəlir,
Hər sözə nəfəs verirsən,
Nəfəsə səs verirsən,
Sən QURAN oxuyanda.
Aldığın nəfəs halal,
verdiyin nəfəs halal,
Sən halalsan, halal.

## *SÖZÜN*

Sən QURAN oxuyanda
Sözün xoşuma gəlir:
Bismillah-ir-rəhman-ir-rəhim…
Kim deyir ki,  lalsan, lal,
Sən kəlamlısan,
Sən haqqı-saylı, salamlısan,
Səndən ötrü ölürəm, ilahi!
Sən SUALSAN, SUAL.

# SOSİAL-izm



## *KİMLİK*

Soyadı: Azərbaycan
Adı: Badi-Kubə
Atasının Adı: Tarix
Doğum tarixi: Erkən orta əsrlər
Doğulduğu yer: Abşeron yarımadası.
Ailə vəziyyəti: bakirə

Bir yanda Qız qalası, İçəri şəhər,
O biri yanda Xəzər.
Odlar yurdunun oduna qızınıb,
Xəzərdən su içib.

Qara qızıl axır damarlarında,
Qara, qap-qara qanı müsbət birdir.
Xəzər boyda iri gözlərinin rəngi mavi,
Boyu uca, Bayıldan Biləcəriyə qədər,
Hərbi vəziyyəti - qəhrəman şəhər,

Bakı, Bakı…
Səni o qədər sevdim ki…

## *BU ŞƏHƏRDƏ*

Yazığım gəlir bu şəhərdə,
kimsəsiz evlərin qaralan gözlərinə.
Yazığım gəlir evsiz-eşiksizlərin
göz-göz ağaran dizlərinə.

Yazığım gəlir bu şəhərin
qarnıaçıq qızlarına,
Küçələrdə ayaq döyən
qarnıac bomjlarına.

Yazığım gəlir dinclikdən
yorulan dinclərinə,
Atılanlarla dolu küncləinə.

Yazığım gəlir qocalan
küçə uşaqlarına,
Qocalar evində uşaqlaşan
qocalarına.

Yazığım gəlir bu şəhərin,
Tıxaclarda  ləngiyən zamanına,
Yazığım gəlir Bayır şəhərin
İçəri şəhərdə daş qəfəsə salınan
göyərçin canına.

Bu cansız bayır şəhərdə,
gününü sayır hamı…
Bir, iki, üç...

Bir - qədim-qayım şəhər,
İki - İçəri şəhər,
Üç - Bayır şəhər.

Yazığım gəlir,
Hündür-hündür
binalarla udulan şəhərə,
İçəridən unudulan şəhərə.

Yazığım gəlir bu şəhərin
yağlı-duzlu dənizinə,
Dənizinin suyuşirin bənizinə.
Dibinin yağını çəkdik,
çəkdik, ayağını çəkdik,
bu yüyürən şəhərin…

Yazığım gəlir bu yaşda
torpaq sürüşməsinə düşən şəhərə.
Ayağı sürüşən şəhərə,
Qatar-qatar
uzaqlara gedir şəhər,
Yazığım gəlir yazıqlara,
yaxınlara, uzaqlara…

Yazığım gəlir özümə,
heç kimin yazığı gəlməsin deyə.

## *BÜRKÜLÜ ŞƏHƏR*

Şəhər quruyur dənizin qırağında,
gecələri quru,
küçələri quru,
daşları quru,
sakinləri quru,
başları quru gördükcə
boğazım quruyur…
«Bir az sərin su verin şəhərə!»…

Şəhər quruyur dənizin qırağında
Dəniz buxar yollayır Göyə:
«Bir az yağış yağdır!»
Suyu azalır dənizin,
Nefti azalır, qazı azalır,
Hər şeyi, ən azı, azalır…

Şəhər quruyur dənizin qırağında,
hamı qaçıb dənizə girir,
Qurumaq istəməyənlər
hər yerdə gözə girir…
Göz yaşı qurumur neçə-neçə gözlərdə.
Şəhər quruyur şəhərlilərin içindən,
Kənddən kəndçilik gətir
özünlə gəzdirməyə.

Şəhər quruyur dənizin qırağında,
Qız Qalası quruyub qalıb,
Dəniz çəkiləndən…
Şəhərdə qızlar qarıyıb qalıb,
sevdikləri "öləndən".
Şəhər quruyur içindən,
«İçəri keçin, İçəri Şəhərə,
daşı daş üstə qoymayan, cənab əcnəbi!»

Qalxır göbələk binalar,
cız-cız, lək-lək binalar…
Şumlanır ağaclar,
Şəhər qırılır ağacların içindən,
qırılır acların içindən…

İllər ötür…
Şəhər qurulur dənizin qırağında,
Ən hündür yerdən baxanda görürəm.
Kənddən bir az da gənclik gətir,
bu qoca Şəhərə.

## *ŞUŞADA VURULAN VERTOLYOT*

Ürəyin yandımı, yandımı için,
odun çıxdımı, çıxdımı ruhun,
külün qaldımı, qaldımı yadında
vurulmağın,
Şuşada vurulan vertolyot.

«Uşaq» idim onda,
qəşəng idim onda,
Yana-yana düşən sən də qəşəngdin.
Elə baxırdım,
elə bilirdim fişəngdir,
Şuşada vurulan vertolyot.

Bilərdinmi obyektiv "Xəbərçi"
Verəcək vurulmaq xəbərini,
Xəbərin oldumu özündən,
Şuşada vurulan vertolyot?!

Çıxdı ruhun plazma halında,
uçdu uçduğun göylərə.
Ulu göylər,
Yağmurlu, sulu göylər,
Vurğun vertolyotların
Eşqiylə dolu göylər.

Şuşanın dağlarına,
Şuşanın dumanına,
qırmızı koftasına,
yaşıl tumanına,
Azad olmaq gümanına,
Şuşaya vurulmuşdu,
Şuşada vurulan vertolyot.

Kərəm olub,
düymə-düymə açdın
Şuşa sevgini,
Yana-yana qaçdın göydən,
Qaça-qaça düşdün göydən
alma misali…
Şuşada vurulan vertolyot,
Mən də, o gün vuruldum
ürəyimdən…

## *BU MƏMLƏKƏTİN*

Torpağının altı,
üstündən qiymətlidir
bu məmləkətin,
Şəhid balalarıyla...

Əcnəbilər
yerin altını da bilirlər, üstünü də,
Ayağımız dəyə bilmir Qarabağa.

Şəhidlər xiyabanında,
utandığından ölüb yerə girən olur,
ölə bilmədiyi üçün.

Ayağının altı
qara qızıllı şəhərində,
dilənçiləri artır bu məmləkətin.

Ağ qızıl yığanları
mis pul kimi qızarır tarlalarında,
bu məmləkətin.

Ayağının altında ölənləri yox,
Başında duranları
görür cənnətini bu məmləkətin.
Nə torpağının altına,
nə də  üstünə layiq ola bildim...
Ölüm ayağının altında, Vətən!

## *HADİSƏ*

Kötük ömrün
vücudunda bardaş qurub,
qardaş olmusan dərdlə
öldürdüyün anların
itkisindən xəbər gəlib qaça-qaça.
İnsanın fiziki ölçülərini
çoxdan keçmisən, qoca!
Sən təbiət hadisəsisən.

Ocaq yeri kül saçların,
gözlərin kül altından
işaran köz,
Çıxır tüstün,
damağında qəlyan,
Yanmısan, qoca, yanmısan,
Sən kimyəvi hadisəsən.

Kökün üstə bitdin, kötük,
İllər kötəklədi səni.
Budandı budaqların…
Allah müharibə çıxardanın
qollarını qırsın!
Sən cəmiyyət hadisəsisən, qoca!

İtirdik bir gün səni də,
Tarixi hadisəsən, qoca!
İtirdik səni,
Heç bir hadisə baş vermir daha.

## *ADAMLAR*

Gəldim ömrü dünyadan,
Ötürəm, ay adamlar!
Gəlmədim çıxacağı
İtirəm, ay adamlar!

Yüküm özcə yaşıdım,
Daşıdım, hey daşıdım…
Qoymayın yavaşıdım,
Çatıram, ay adamlar!

Küsdü baxtım öfkədən,
Çıxıb getdi, o gedən…
Bir ölümcül sevgidən
Yatıram, ay adamlar!

Uçum gedim huş kimi,
Tuti kimi, quş kimi,
Adamlığı daş kimi,
Atıram, ay adamlar!

## *ŞEİRLƏRLƏ DÜŞÜNÜN*

Axşam düşür, yenə də şər
qarışır…
Milyon ildir
Xeyirlə Şər yarışır.

Şər çağında neçə ümid
daralır.
Qaranlığa işıq verən
lampaların şüşə üzü
qaralır.

Gecə bizə layla deyir
gecələr….
Qəlbimizdə neçə ümid
gecələr.

Yada düşür şirin-şirin
nağıllar…
Nağıllardakı ağ atlı
Oğullar.

Nənəmin nağıllarıyla
böyüdüm…
Nənəm deyərdi ki, «Yavrum,
bar ağacı bar verər»,

-Mən söyüdəm, söyüdəm.
«Saçları göylərə dağılan söyüd»,
Ağlatdım «göylərin buludlarını».

Ağac oldun, yarpaq oldun,
daş oldun.
Hər nə olsan da, vətəndaş oldun.
Düz xətt cızdın, düz oldun,
Sən çevrəsiz qız oldun…

Yenə də çevrəsizliyindən çıxır
çörəyin…
Çevrəsizliyinin pərgar nöqtəsi
Qələminin ucu, bir də ürəyin.

Böyüdü radius boyda
sətirlər…
çıxdılar diametrindən,
daha bütün ölçüləri ötürlər…

Sətirlər ölçü vahididir
dünyagörüşünün,
Ay adamlar,
şeirlər üzərində düşünün,
düşünün…

## *FƏRİZƏNİN QU NƏĞMƏSİ*

Bir vaxtsız vağzalı çalındı,
Bakıda Moskva vaxtı ilə
90-cı ilin 20 yanvar gecəsində…
Bir vağzalı çalındı,
gəlin olan kim, yola salan kim…
Gedən kim, qalan kim.

Bir vağzalı çalındı,
Ömrün iyirminci baharında.
Aparmağa gəldilər,
Şal almağa gəldilər…

Bir nəğmə səsləndi,
Taleyin bu nəğməsi,
Fərizənin qu nəğməsi oldu…
Başındakı fikirləri fata kimi
sola atdı, sağa atdı…
Bir nakam sevgi uğruna
Canını torpağa atdı.
Torpağın gəlini...

## *ŞƏHİD ANASI*

Saçlarını ağardan şəhid anası,
Başın üstündə
dərdə ağ bayraq qaldırma!

Qırmızıya boya qara günləri,
Al-qana boya…
Ocaq qala,
Bizi döyüşə səsləsin,
Şəhid anası!
Hansı,
hansı şəhidi olan yurd
yağıya basılıb?
Ağıya son,
Yağıya ölüm,
Şəhid anası,
Saçların – şəhid laylası…

Al-qırmızı bir layla de!
Al dünyanın ürəyini,
ürəkli ol!
Unut yası.
Ruh ver bizə,
Bir  döyüş havası söylə,
döyüş havası.
O döyüş havasına,
Döyüşməyim gəlsin...

## *KÖK ALTDAKI MİLYONLAR*

Tavanları divarlar,
Göyü Allah saxlayır…
Allahla işin olmasın,
Göy laxlayıb başımıza uçar.

Ağacları öz kökü böyüdür,
Ərəb dilindəki felin bablarını,
Üç kök samiti.

İki kök altdakı qırx milyonluq biz,
Bərabər idik
qismətin yarısına.
Bizi kök altına salanların
kökü kəsiləydi.

Dağları qaldıran dərələr,
Divarları qaldıran daşlar,
Kök adamları qaldıran arıqlardı.
Çıxsa tapdağı altından
Məşədi İbad sayağı
havadan asılı qalar.

Kök altdakı arıqlar
düşmən çəpəridir,
Söküb yandırmayın.

## *GÖZLƏRİMƏ YIĞDIM SİVASI*

*(Türkiyənin Sivas şəhərinə ithaf)*

Gözlərimə yığdım Sivası,
İlçə-ilçə.
Divriyə, Kanqal, Şarkışla…
Torpağı öpdü ayaqlarım,
Heca-heca.
Təpədən-dırnağadək gəzdim, yazdım,
Bir nöqtəni
yüz cümlənin sonuna atdım:
Sivası çox sevdim
addım-addım.

Türküləri ruhuma,
Havası nəfəsimə,
Rəngi gözlərimə yatdı Sivasın.
Üzdüm onu asım-asım,
Qızılı Günəşin meynəsindən,
Könlümün bir köşəsində,
türk ruhunda,
türk səsində,
sevgiləri yuva qurdu.
Aşıq Veysəl oylağı,
ata yurdu Sivas.
Ayın-yıldızın da gözəl,
Qızılirmağın qızılı saçları da,

İç Anadolunun içi də,
ucları da.
Təpədən-dırnağadək
öpdü ayaqlarım heca-heca.
Gördüyüm o sevilәsi Sivası,
Gözlərimə yığdım ilçə-ilçə.

## *QURBANAM*

Ana torpaq gözəllərin gözəli,
Bu gözəlin laylasına qurbanam.
Göy göl kimi, Maralgöl tək qızların,
Xəzər kimi anasına qurbanam.

Nələr varmış bu fələyin oyununda,
Qara qızıl xəzinədir qoynunda,
Meşələri boyunbağı boynunda,
Dağılmayan danəsinə qurbanam.

Doqquz iqlim gözəlliyi üzündə,
Min bir dərdin dərmanı var düzündə,
Dəli Xəzər elə gülür gözündən,
Mavi gözlü aynasına qurbanam.

Başın üstən gilavarlar əsməsin,
Araz coşub yollarını kəsməsin,
Bu torpağın gözəlləri küsməsin,
Vətən adlı sonasına qurbanam.

## *İMİC*

Hər gün yüyürən rezin ayaqlı zaman,
tikilən körpülərin üstündən
şütüyüb gəlir-BMV, İNFİNİTİ, PEJO
dostumuzla,
beynəlxalq standartlara uyğun.
Kasıbsa avtobusda,
basabasda…

Hər gün dəmir-beton ayaqlı
«novostroyka» binalar,
Sevdiyi şəhərə açır şüşə ürəyini,
beynəlxalq standartlara uyğun.
Kasıbın ürəyisə açılmır ki, açılmır,
həmişə yasda.

Kartla çıxır əmək haqlarımız,
beynəlxalq şirkətlərdə
tapdanır haqlarımız,
beynəlxalq standartlara uyğun.
Kəsir haqqını kasıbın
çörəyini kəsən əcnəbi.
Beynəlxalq standartlara uyğun,
usta-usta.

Yerli kanallar,
əcnəbi seriallarla gülür üzümüzə,

Tezliklə, yeni tezlikdə
yeni kanal açılacaq,
beynəlxalq standartlara uyğun.
Kasıb kanal axtarır
işə girməyə…
Tıq-tıq döyür qapıları ürəyi,
asta-asta.

Milli bankların qarşısında,
dar miləmil şalvarlı
zəngin Bakı qızları
göbəyiaçıq…
Beynəlxalq standartlara uyğun.
Kasıbınsa əliaçıq,
ürəyiaçıq,
beynəlxalq bankların qarşısını süpürür,
əynindəki süpürgəçi paltarı
beynəlxalq standartlara uyğun,
dayanır postda.

Bu şəhərdə
hərə bir yana tələsir,
London, Nyu-York, Parisə…
ATİS-lə (according to
international standards).
Burda isə,
milli standartlar əsir,
beynəlxalq standartların əlində,
beynəlxalq standartlara uyğun.

## *KİM YATMIŞ, KİM OYAQ?*

İnsan,
Yaranıb bir gün o,
bacarıqlı olub,
yığıb zamanı, yığıcı olub.
Ovçu olub, balıqçı olub,
«Homo sapiens» olub,
Ox və kamanı kəşf edib mezolitdə,
ən müasiri isə atmağı
əlahiddə-əlahiddə…
Uzağa, yaxına atır hamı,
kim yatmış, kim oyaq,
Yatır hamı…

İki daş arasında qalıb,
İkiçayarasındakı türkmən,
bomba-bomba atır Amerika,
güvənc yerində dəfn olunur
son ümidlər,
Hürkməm, əsla hürkməm…

Dədəli üzündən gələn
güllə səsləri üzümə dəydi,
23 avqust Füzulisində…
Kərkükə bomba düşəndə
köksüm yandı.
Burnumun ucu göynədi
«Əbişin burnu» üçün…

Eramızdan əvvəl olub
Hammurapi,
düz ikinci minillikdə,
oyanmışdı.
Qanun düzdü maddə-maddə,
Qara bazalt daş üstündən oyandı,
Ətəyinə daş yığanlar
apardılar dağıdıcı-dağıdıcı…

Avtobusdayam,
Bir öpüşlük məsafədən
ayırdı bizi
yolun çala-çuxuru,
hamı elə əyləşib,
elə bil heç vaxt
durmayacaqlar yerlərindən…
yol gedir zaman,
kimi yatmış, kimi oyaq.
Bərk gedənlər yenə də bərk şütüyürlər
küçələrdə «inomarka» cildində.

Ürəyim evdə qalıb,
Zəng vurub deyim qazı söndürsünlər,
Ürəyimi göndərsinlər…
Bir də görürsən birdən başladı hər şey,
çünki Birdən yaranıb
bütün ikilər,
hind rəqəmlərinə

ərəb rəqəmləri demişik,
çox şeylər var dolaşıq,
fikirlərim ilişir,
kim yatmış, kim oyaq…

Gedirəm,
yol uzanır ayaq-ayaq,
yol tapdanır uzununa.
Ayağını uzadıb yatanlar,
nə qədər haqq tapdalayır,
yol uzanır ağac-ağac,
Ağaclar yol boyu uzanır,
yolu kölgədə qoyur,
körpələr yuxuda böyüyür,
Böyüklər yolda,
kim yatmış, kim oyaq?
Kiçiklər yatmış, böyüklər oyaq,
kim yatmış kim oyaq,
gecəni sevənlər oyaq.

Günəşin üzünə baxa bilmirəm,
gecəni sevdiyimdən,
kölgəmi yaşadan Günəşin…

## *VƏTƏN İYİ GƏTİRƏRSƏN*

Ay yurduma gedən elli,
Qarabağlı, şirindilli,
Gözləri həsrətdən selli,
Vətən iyi gətirərsən.

Əlim çatmır, ünüm yetmir,
Gözlərimdən həsrət getmir,
Burda xarıbülbül bitmir,
Vətən gülü gətirərsən.

Havası xoş, suyu xoşdur,
Bulaqları nə meyxoşdur,
Xəyalım dağları aşdı,
Vətən iyi gətirərsən.

Quruçay lillənib yenə.
Çərəkən göllənib yenə,
Köndələn dillənib, mənə
Vətən suyu gətirərsən.

## *NƏNƏMİN LÜLPƏR DAĞI,*
## *yaxud KÖÇ*

*(Nənəm Tovuzun əziz xatirəsinə)*

Gözün yol çəkir, bilirəm,
Arranın köç vaxtı gələndə.
Dağdan Arrana, Arrandan dağa
köçənlər də köçdü dünyadan
gözünü çək…
Göyçək-göyçək nənələrin köç maşını
səmtini dəyişdi daha.
Nənəmin Lülpər dağı.

Döşündə tikilən komalar
çubuq-çubuq yandırıldı
qaçqın çadırlarında.
Sac üstündə qızaran yuxalar…
Hərdən yuxuma gəlir.
Nənəmin fəsəli yayan yastıq əlləri
xınalı daşlarına sığal çəkmişdi,
yaddaşındamı?
nənəm deyərdi ki, nənə əli yastıq olar,
silləsi də sığal kimidir.

Şüşə gözlü bulaqlarının
bum-buz suyuna həsrətdən üşüyür,
nənəmin dəmir biləkli su səhəngi,
Lülpər dağı!

Qul Alıdan, Dəvəgözü dağından,
Pəriçınqılından yana,
sənin üçün çox darıxdım yana-yana,
Nənəmin Lülpər dağı!

Yamacının qaymaqçiçəyi rəngi,
bəzən göz-gözü görməyən dumanı,
yeddi taxta tumanına bənzəyirdi
nənəmin, Lülpər dağı!

Ətri gəlirdi nənəmdən,
dağların dağ çiçəyinin,
Sarı gəlini anamdan
sapsarı solmaz gülünün
ətri gələn kimi,
o da soldu, bu da soldu yavaş-yavaş,
Bu torpağa baş qoydular, baş…

Dağın oldu, daşın oldu, dərən oldu,
kəklikotu çiçəyini
yamacından dərən olduq,
«Durna gözlü» bulaqlarına
cangüdənlik edirdi şiş qayan,
arxalan o qayalara, oyan,
Oyan, nənəmin Lülpər dağı!

Bu millət sənə sarı gəlmədisə,
Sən bu millətə sarı gəl,
Nənəmin Lülpər dağı…

## *OLSAYDI*

Şəxsiyyətli meyvələrin
yanından ötür baxa-baxa,
əlsiz-qolsuz adamlar,
Qolu olsaydı alardı.

Şəxsiyyətli meyvələrin yanında
ayaq saxlayır balaca dilənçi,
dadını duyur, şirələnir,
meyvə çəkir içi...
Pulu olsaydı alardı.

Baxdıqca,
ürəyin üzülür saplağından,
dəymiş meyvə misali...
Suyu damcı-damcı axır
gözündən
qolsuz adamın,
pulsuz adamın.

Şəxsiyyətli meyvələrin yanında
ayaq saxlayır şəxsiyyətsiz adamlar,
pullu, qollu, qoluzorlu adamlar...
Yer-yemiş alır
ağzıyemiş adamlar.

Şəxsiyyətli meyvələrin yanından
ötmür zaman,
ipindən tutub çəksən də.

Zaman rəng qatır meyvələrə,
qırmızı-qırmızı,
qanı qaralır
qolsuz adamın,
pulsuz adamın…

## *REKLAMLAR…*

Toy çalınır,
ağaclar yarpaq tökür başına
külək oynadan otların.

***

Otlar kökü üstə bitər,
　　Köksüzlər dibçəkdə.
Kökünə bağlılar bitmədi,
　　Köksüzlər bitdi,
Kökünə bağlılar bitdi,
Köksüzlər bitmədi,
tükəndi…

***

Etibarı
dayanacaqdan dayanacağa
çatmaz şəhər avtobuslarının,
Harda istəsən atar səni...
Səbrindən asılıb qalarsan,
basabas avtobuslarda.

# TANATOS



## *O ADAMA*

Dərd çəkir öz içində,
Yarı dərd, yarı adam.
Gözləri tərəzidir,
Qaşları tarım adam.

Yığılıb gilə-gilə,
Dürr tökür gülə-gülə,
İsti sevgilər ilə,
Arası sərin adam.

Göz qapağı yığılır,
Fikri düşüb dağılır,
Öz içində boğulur,
Dəryadan dərin adam.

## *BORC*

Dənizə girən qız,
borca batmışdı.
Mavi gözlərini,
dalğa-dalğa saçlarını,
qaya kimi dik burnunu,
dəniz ulduzu ağ əllərini,
dəniz atı ayaqlarını,
Dənizdən almışdı,
borca girən qız…

Yaladı, yaladı sular,
əllərinə-ayaqlarına düşdü,
apardı dəniz.
Borcunu qaytardı,
Dənizdə batan qız…

## *KÖÇƏN ADAM*

Bu köhnə ömrünün qara günündən,
Sən ağa bürünüb təzə köçürsən.
Hamı əli üstə ötürür səni,
Sən əldən düşürsən, gözə köçürsən.

Qabla günlərini yığış ta bəsdi,
Boyun qaçırmağın daha əbəsdi,
Yolamı salırlar, sizdə nə səsdi,
Səni qarşılayım, bizə köçürsən.

Bir ömrü sonadək biçib gəlirsən,
Qurumuş bəxtini içib gəlirsən,
Sən də, mənim kimi, köçüb gəlirsən,
Sən də, indən belə, sözə köçürsən.

Axır nəfəsinlə üfürüb şamı,
Girirsən zülmətə bu yaz axşamı,
Sabah izlərini  tapacaq hamı,
Sən qoyub gəldiyin izə köçürsən.

## BU GECƏNİN QAŞI ÇIXIR

Qəm tağında dəyən kəsin,
Yetişmişəm deyən kəsin,
Öz dərdini yeyən kəsin,
İçində dərd kişi çıxır.

Gözə naxış çəkilməyir,
Yarpaq olur bükülməyir,
Qəmi gəlib tökülməyir,
Ağlayanda yaşı çıxır.

Gecə çarşaba bürünür,
Gözün açmağa ərinir,
Ay doğur halə görünür,
Bu gecənin qaşı çıxır.

Yenə axırımız birdir,
Son mənzilin işi sirdir,
Torpağın ağzı qəbirdir,
Yeyir, sonra dişi çıxır.

## *BİR ÖMÜR SIXIR MƏNİ*

Göylə Yer arasında,
Bir ömür sıxır məni.
Yer yerdən itələyir,
Göy göydən yıxır məni.
Yenə təkəm…

Ürəyim də gəlmir
durum gedim.
Heç olmasa sən gəl,
görüm gedim.
Sənə çəkim…

Özünü itirdi,
azdı yollarım.
Köksümdə qəbrini
qazdı yollarım,
büküm-büküm.

Söz oldu kəfənim,
söz oldu ölümüm.
Mən də gözləmirdim —
tez oldu ölümüm,
tez oldu ölümüm.

## *ÖLÜM MƏNNƏN ƏLİN ÜZÜR*

Qələm dolu, ürəyim boş,
Qələm mənnən əlin üzür.
Könlümə yatmadı deyə,
Ələm mənnən əlin üzür.

Fikirli gəzir əllərim,
Əlimdən bezir əllərim,
Qəbrimi qazır əllərim,
Əlim mənnən əlin üzür.

Fikir çəkir qələm indi,
Bu fikirnən gələm indi.
Gözləmir ki, öləm indi,
Ölüm mənnən əlin üzür.

## *YARPAĞIN SEVGİSİ*

Bu payız qara torpağın,
Qara üzü şirin oldu.
Vurulan yaşıl yarpağın
Sevgisi nə dərin oldu…

Üzünün damarı çıxdı,
«Saralır» xəbəri çıxdı,
Ağac evdən sarı çıxdı,
Topaq evə gəlin oldu.

Sən yaşılsan yağışı sev,
Sev onu, addımbaşı sev,
Kam aldığın ağuşu sev,
Torpaq hardan yarın oldu?

Gələn payızdı - biləydin,
Sevirdin yazda sevəydin.
Bu sevgi üçün savaydın,
Daha gecdi, qəbrin oldu.

# ANAM - izm



## *ƏRİDİ QALMADI ÖMÜR*

Dağı aşan günəş kimi,
Niyə fikrə dalıb getdin?
Köksündəki arzuları,
Əllərindən salıb getdin.

Ən uzaq evin hardadır,
Hanı çıraq, hanı şüşə?
Yandır, sən Allahın adı,
Bəlkə ruhum qonaq düşə.

O kimdir ağlayır, Allah,
Kimdi göz yaşıma çimir?
Dedim yəqin hey yanacaq,
Əridi, qalmadı ömür.

## *AĞRILI ŞEİR 1*

İslanıb yaş olmuşam,
Gözümdən sıxılıram.
Alt-üstü daş olmuşam,
Özümdən sıxılıram.

O səni tutan məzar,
Ruhum evini gəzər.
İnsan nə qədər dözər?
Dözümdən sıxılıram.

Gözümdə qaldı gözün,
Gözlərim ikimizin.
Mənə düşüb hər izin,
İzimdən sıxılıram.

## *AĞRILI ŞEİR 2*

Gedirsən gəlməməyə,
Ay mənim gəlməyənim!
Bir can borc aparırsan
Fələyə, gülməyənim.
Borcunu ələ verdin.

Gözü çıxdı torpağın,
Kor oldu qıydı sənə!
Ya acıxdı, torpağın
Dilimi dəydi sənə,
Borcunu dilə verdin?

Altun saçlı mələyim,
Sən məni bələmişdin,
Mən də səni bələdim.
Bələdim ağ kəfənə,
Borcumu belə verdim?

## *RƏNGLİ YUXULAR*

Kipriklərim hana,
Qara gecələr yuxu toxuyur
gözlərimə,
Rəngli-rəngli ilmələrlə.
Ümiddən
yamyaşıl səməni göyərdib
alqırmızı kəndirlə
əlayağını bir yerə yığmışam
saralana kimi…
«Ümidlər sonda ölür»…
Bənövşə rəngli qələmimi
Yazı masamın palıdı üzündə
Dünya müstəvisində
suya qoymuşam.
Dupduru göz suyuna.
Yazacaq, yazdır.

Qara gecələr yuxu toxuyur
gözlərimə…
Qorxum yox kor olmaqdan.
Səni görürəm, Ana!
Altun saçın, ala gözün,
boy-buxunun.
Nə qədər gözəl rəngi var
bu yuxunun.

Durub ağlayıram
Ac uşaqlar sayağı.
Süd kimi ağ səhər var qabaqda.

Bircə rəngsiz ruhunun
rəngini tapa bilmir,
Gecə gözlü qara gecələr.

## *ÖMRÜM UZUNLUQDA SÖZ*

Ömrüm boyu unutmaram,
Kəsik-kəsik söylədiyin
Ömrüm uzunluqda Sözü:
«Özündən muğayat ol!»

Ömrüm boyu unutmaram
boylu nigarançılığın,
elə-hey haray çəkərək
yumulmağa qoymadığını
heysiz göz qapaqlarının…
Yorğun-yorğun.

Ömrüm boyu unutmaram,
yanağında giləlÉ™nən
son damla sözünü.
Ölümünə yer salmayan
doğma-doğma adamlarının
öz başıyla savaşını…

Ölümə yaşı çatmayanım,
gedirsən gəlməməyə.
Ay mənim gəlməyənim,
Gəlməyənim…

## *ÇƏKDİM*

Yumdum, gözlərim tökdü,
Ovcumdakı qanlı sudu.
Çəkdim,
Qəlbim dərdin fotosudu.

Ağ gündə qara dən gördüm,
Ömrü küsüb gedən gördüm,
Gördüm, gördüm, gördüm,
Dərdin böyüyü hansıdı.

Səssiz gəldi, addım-addım,
Ağrı-acısını daddım,
Bu itki mənə anlatdı
Ölüm insan oğrusudu.

## *ALLAHIN ALTINDA*

Anan sağ olsaydı,
«anan ölsün» deyənin olardı,
əllərin ölmüş arzularının,
qələmin ağarmış kağızlarının
yasını tutanda.
Yastığının canına çəkdiyi
göz yaşların çəkilərdi yatağına.
Gələn üzüyünün üzügülər
çıxanı olardı qabağına,
Anan sağ olsaydı!

Dəmə qoyduğun
ümid qazanının
açıb ağzını qoxulayırsan,
Ananın ətri gəldi otağından
sizə elçilər gələndə.

Köçüb getdi…
Boş qoydu
analı qızlar içində,
görünən yerini…
Sən köçəndə ağlayanın olmayacaq,
vağzalı sədası altında…

Anan sağ olsaydı,
ölərdin ayaqlarının altında
«Cənnət» deyə.

## *ÖLÜM TABLOSU*

Halqalanmış gözlərini
mühasirəyə almışdı ölüm.
Bir qoşun kirpikləri
qırılıb tökülmüşdü,
zəhrimarın təsirindən.

Qurumuş göz bulağından,
Son damla göz yaşı çıxdı
məğlub-məğlub.
Taqətsiz dizləri büküldü
susuz damlanın…
Giləlǝnib qaldığı yerdən götürdün
dodaqlarınla…
Uddun,
dəfn elədin ürəyində.
Bu möhtəşəm qalada nələr vardı,
sirli-sirli…
Nənən öz əlləriylə qapadı,
bu qalanın açıla qalmış qapılarını.
Bir cocuq çaşqınlığıyla
bağırmaq keçdi içindən.
Keçdi içindən,
heç kəsin xəbəri olmadı,
qoşa qalanı
gözünə köçürməyindən.

## *DİLEMMA*

Anam,
Tanatosla atamın arasında qaldı,
Atam
anamla eqoizmin.
Hansı daha böyükdür?
Anam >Atam > Tanatos.

# ATAM- izm



## *TAMDIR ATAM*

Əllərindən zəhmət damır,
gözündən nur,
dama-dama gölə dönüb.
Qabar-qabar barmaqları çiçəkləyib
gülə dönüb,
Bu çiçəkdən bal çəkdikcə,
şana-şana arzulara
zəhmət dolub, bala dönüb.

Saçlarında 70 ilin ocaq yeri,
yanıb-yanıb külə dönüb.
Naxış salıb üz-gözünə taleyinin
çalın-çarpaz cırmaq yeri,
Qocalır,
ürəyində anama sevgisi qocalır…

Adı gəlcək damarımdan
isti-isti axın keçir,
Fikir yükü çəkə-çəkə
gəlir mənim ürəyimdən yaxın keçir.

Nə tapıbdı bu torpaqda?
Tapa bilmədiklərimi…
Torpağın dilini tapıb.

Torpaq ona can veribdi,
torpaq ona su veribdi,
dən veribdi, çörək verib,
torpaq ona dilək verib.
«Gərəyimdi»- deyir torpaq,
torpaq ona gərək verib.

Ayaqları dəyən yerdə,
bağ, bağ olub, bağa dönüb.
Bircə uğurumdan
böyüyüb ürəyi,
Dağa dönüb.

Anamlı, anamsız…
Yol gəldi aramsız,
sözü bütöv gəldi,
ocaq-ocaq gəldi, ev-ev gəldi.
Oğullu-qızlı,
nəvəli, toylu-düyünlü, sazlı,
ürəkli gəldi,
bütöv gəldi, tam gəldi
Atam.

## *ATAM*

Atam
anamdan əvvəl gəlib dünyaya,
anamdan sonra evləndi…
Əvvəllə sonun arasındakı ömür
sıxdı onu.
Bir az həyatdan gördüyü amansızlıq,
bir az anamsızlıq
qatıldı bu ömrün gözünə.
Qarışdı dünyası,
Qızının toyu,
Qadınının yası…

Bu köhnə sovet adamının
cibindəki kommunistliyinin
təzyiqi vurdu ürəyini.
Haqqın dalınca getdi,
baxmadı təzyiqlərə.

Bakıdan Moskvaya,
Gəncədən Leninqrada…
Sıxdı onu ora da,
bura da…

Məktublar göndərdi
düzdə qalan düzə,
qışdan yaya
uzun illər
məktublara bükülüb çıxdı.

Əynim-başım olmayanda,
ürəyi od tutub yandı.
Almadığı geyimim,
gecələri bəyaz Leninqradın
asılqanlarında təzə qaldı.

Bəyaz gecəli şəhərdən,
Gecə gözlü kəndə döndü,
ağ-qara ömürlə birgə…
Ağac əkdi,
düşmən çəpəri çəkdi.
Oğul-qız böyütdü,
saç ağartdı.
Əllərinin qabarıyla
öpdü torpağı,
ev qurdu.

Adını tutduğu dünya,
atdı onu.
Qaldırdığı evi,
saldığı yurdu,

bölgə qarışıq satdılar…
Böldülər insanları:
Ölməlisi, qalmalısı…
Ölməlilər qaldı,
qalmalılar öldü…

Atam anamdan əvvəl
gəlib dünyaya…
Anamdan gördü-götürdü,
Allah da anamı götürdü…

Hərdən nənəm deyir ki,
«Elə bil heç balam yoxmuş».
Nənəm bilmir ki, anam var.
Yuxusuz qaldığım gecələr
anamla doludu.
Saçlarımda açan **Ağ Gül**lər
anamla doludu…
Ürəyimin içi
anamla doludu,
için-için
anamı dünyaya gətirmək istəyirəm.

Qəbirlər içrə tənha məzar var,
içi anamla doludu.
Üstünü götürüb atam,
Hər gün su tökür ora,
Anam ayılmaz…
Anam bir də məni doğmaz.

Atam
anamdan əvvəl gəlib dünyaya,
anamdan sonra evləndi.
Anam bir də dünyaya
Gəlməz,
Gəlməz,
Gəlməz…

## *BABAM və NƏNƏM*

Qatıq iyi gələrdi nənəmdən,
saçlarını ağartıyla yuduğundan…
Qoyun iyi gələrdi babamdan,
qoyunları sevdiyindən,
duyduğundan…

İpək kimiydi əlləri,
Barama qurduna bənzəyən
barmaqlarıyla,
«jilet» toxuyardı bizə nənəm.

Yağ içində qayqanaq sevərdi
üstünün balıyla,
şiriniydi dilləri,
«Düşər mənə bir qayqanaq» -
oxuyardı gözəl babam.

Qışın oğlan çağında,
ocağın qırağında,
göydən üç alma düşərdi,
nağıl danışanda nənəm…

Xəşili sevərdi,
ən sakitimizin qaynamasına
«xəşil də daşarmış»- deyərdi babam…

Qızı olmayıb nənəmin
Üç oğlu olub babamın:
böyük,
    ortancıl,
        kiçik oğul…

Böyükdən biz olmuşuq,
        üç qız olmuşuq,
Nənəmin qızı olmayıb,
        ona qızlıq eləmişik…

Cibindən pay çıxardı,
qapımızdan girəndə babam,
    kökələrdi keyfimiz.
Üzündə ay doğardı,
    bizi görəndə nənəmin,
açılardı eynimiz.

Qoyun iyi gələrdi babamdan
babamı çox sevdiyimdən…
«Nənəm ay anaş qoyun,
        yunu bir qarış qoyun»,
Qoxusu tanış qoyun.

Qatıq iyi gələrdi nənəmdən,
saçlarını ağartıyla yuduğundan…
Ağartmışdı yuya-yuya,
        hörə-hörə saçlarını,

saxlamışdı qara-qara uclarını,
«Saçın ucun hörməzlər»,
Nənəmi geri verməzlər,
Babamı geri verməzlər,
ötən illər, ötən illər…

## *ANAMLA ATAMIN TOSTU*

Bunu içək, **Həyat**da
**Səadət** uğrunda **Mübariz**ə aparıb
qaranlıq **Lətif**ələri
**Gündüz**ə çevirənlərin sağlığına!

## *REKLAMLAR…*

Əlif yollar, ləm yollar,
Əyilib gələn yollar,
Mən çəkdiyim yollara,
Çəkməyin qələm yollar.

***

Ay göydə qaval durub,
Əyilib oval durub,
Bu nə sirri-xudadır,
Başımda zaval durub.

***

Mən aşiq yada saldı,
Canıma qada saldı,
Mən sevdiyim pərvanə,
Meylini oda saldı.

# EQO-izm



## *YAZILMAYAN ŞEİR*

Əvvəl,
ömrü boyu çəkə bilməyəcəyi
bir rəsmin önündə
quruyub qaldı
saçlarının ucunacan.
Qurutdu onu
rəssam əlindən süzülən rənglər,
Sonra
narın-narın yağan yağış islatdı.
Addım-addım uzaqlaşdı o rəsmdən.

Bu heyrətdən ayılmamış,
küçəni keçən zaman,
sevdiyi  gənci
heç zaman yerinə olmayacağı
bir qızla gördü...
O cütlər gözdən itənəcən,
o yağış kəsənəcən
quruyub qaldı yerindəcə.

Keçdi **küçə**dən,
keçdi **yağış**dan,
keçdi **sevgi**dən...

Duymadı bunu
«Torqovı»nın insan əlindən

təngə gəlmiş
o daş küçəsi də.
Heç zaman geyinə bilməyəcəyi
bir geyimin önündə
ayaq saxlayıb  içəri keçdi.
Ürəksiz maniken qürrələnirdi
əynindəki geyimin zövqü altında.
«More exspensive» deyib
eşiyə çıxdı.
Küçələr daşa dönmüşdü,
Evlər yaş daşa dönmüşdü,
ayağının altındakı daş
daşa dönmüşdü.

Ayaqlarını
torpağa əmanət vermiş
bir qəhrəman
duymadı daşların,
daşa dönməyini...
Əl açdı ikiayaqlılara,
ürəklər daşa dönmüşdü!

Bundan sonra
gördüklərindən qaçmaq istədi,
Qaçdı, qaçdı, qaçdı, qaçdı o küçədən,
elə qaçdı ki,
kölgəsi də çata bilmədi ona.

Nə qədər qaçsa da,
nə o rəsm, nə o gənc, nə o geyim,
nə də o əlildən
uzaqlaşa bilmədi.
heç kəsin yaza bilməyəcəyi
bu şeiri yazdı
o günü...

## *GECƏ KİPRİKLİ QADIN*

Gecəni sevə-sevə
gözlərinə köçürmüşdü.
Gözü üstə yer vermişdi
bir cüt hilala
gecə gözlü qadın.

Çəpərləmişdi gecəni,
qara rənglə rəngləmişdi,
gecə kiprikli qadın.

Bir bulud doldurmağa,
bir sevgi yağdırmağa,
vaxtı yoxuydu,
gecəsi-gündüzü yox qadının.

Evsiz-eşiksiz qalmışdı,
torpaqsız qalmışdı,
Qarabağsız qalmışdı
qarabağlı qadın…

## *GƏLİN KÖÇƏN QIZ*

Xınalı əllərin əlcəkdə,
Gözlərin yolda,
Gəlinlik gözləyir səni gələcəkdə…
Vağzalı sədasına köklədin taleyini,
Arzuların nə kökdəydi bəs,
Gəlin köçən qız?!

Çırağın başına fırlan,
Quranın altından keç,
Bu evdən ağ duvaqda çıx,
«Günün ağ olsun» - dedilər,
yolun açıq…
Vağzalı sədası altında
kim ağladı, kim?
Belini kim bağladı bəs,
Gəlin köçən qız?!

Uzun-uzadı vağzalı,
Aram-aram yollar,
Həzin-həzin yerişin…
Zaman nə ahəngdəydi bəs,
Gəlin köçən qız?!

Ağappaq gəlinliyin,
Qapqara saçların,
Qıpqırmızı bel bağın…
Bəxtin nə rəngdəydi bəs,
Gəlin köçən qız?!

## *ÜÇ NÖQTƏ*

Kişi və qadın…
Kişini qadından bağlayıcı ayırır.

Kişi-qadın...
Kişi ilə qadını düz xətt birləşdirir.
İki nöqtədən yalnız bir düz xətt keçir,
Üçüncü məşuqədir.

Kişi atadır,
Qadın ana,
Uşaq da uşaq...

Bəs uşaq yoxdursa?!
Uşaq yoxdursa,
kişi kişidir,
qadın qadın,
uşaq isə... Allahın işidir!

## *KÖRPƏM*

Keçmişlə gələcəyin arasında
gözləyirəm səni,
Sən yoxsan…
Arzularım var,
varım, yoxum var,
Sən yoxsan, yox.

Ətrin gəlir
nəfəsini içinə çəkmiş divarlardan,
səsin yaşayır otağımın sükutunda,
mışıl-mışıl yatırsan:
**-ikisi** var  imiş, biri yox imiş.
Sən yoxsan, yox!

Yer tapa bilmirəm özümə,
göylə yer arasında,
sənsizlik sıxır məni…
Məkanım, zamanım məlum,
həmişə **bu gün**dəyəm-
keçmişlə gələcəyin arasında.

Elə gözəlsən,
gözüm qamaşır çilçirağa baxdıqca…
Tələsirəm vaxtım azaldıqca,
sənin də
vaxtsız gələcəyini bilirəm,
Sən yoxsan…

Özündən əvvəl gələn adın var,
yolunu gözləyən qadın var -
mən varam, atan var…
Sən yoxsan.

Burnumda qoxun,
əllərimdə sığalım darıxır.
Bəsdi yolunu gözlədiyim,
bəsdi daha gəlmədiyin,
bəsimdi, hər şey bəsimdi…

Keçmişlə gələcəyin arasında
gözləyirəm səni,
sən yoxsan
**gələcək**mis**ən**?

## *KİM KİMİ SEVİM SƏNİ*

Çeviksən pişik kimi,
Doğmasan işim kimi.

Şəstin var maral kimi,
Şip-şirinsən bal kimi…

Sadiqsən it kimi,
İşləksən at kimi…

Yığımcıl qarışqasan,
bam-başqasan…

Ürəyim evin sənin,
Ürəyim kimi sevim səni?

Canlısan, cansızsan,
Kəpənəksən, **qansızsan**.

Dilində «yox» yox sənin,
Necə sevim axı səni!

Neynəyim…
Səni Adam kimi sevə bilmirəm…

## *İKİ SEVGİ*

Niyə gözündəki sevgi,
dilinə düşmədi,
gözündən düşdü, gecə gözlüm?

Ona oxşayan nəğməni
o qədər sevdin ki, nəğməsiz,
sürüşdü o nəğmənin notu,
xaric getdi…

Taxdığın üzük
barmağını yox,
ürəyini sıxdı,
Tanrı hara baxdı?

Üzündəki gülüş
şirin-şirin dağıldı?
Acı-acı ağladın.
Şirinliyi havaxta saxladın?

Çiçəyi burnundaykən
duymadılar səni,
soldun, çiçəyim?

Onun yolunu gözlədin.
özünü gözləmədin,
gözləyənim?

Mesajları unutmayıb
barmaqların,
unudulanım?

Onun şəhərini,
şəhərin kimi,
səhərini səhərin kimi sevdin,
səhərim!

Sənə yazdım bu şeiri,
Sənə…

Sonunda…
gözündən iki sevgi düşdü:
Biri sənin,
biri... heç kimin.

## *7-Cİ PALATA*

Bircə pəncərədən doğan ayın işığı,
dolan hava bəs eləmir
yayın bu qızmar çağında,
dörd divar arasındakı 7-ci palataya.
21 günün içində «atalar 3-dən deyib»
fikri əl götürmədi yaxamdan.
Yeddini üçə vurdum…
Gecə saatlarında efirə çıxan
zəhərli reklam blokudur ağcaqanadlar,
yuxumu gözümdən alıb.
Sabunçu xəstəxanası…
Şirinliyi palataya dağılmış bir qızın
səsindən bal tökülürdü
türk ləhcəsində.
Elə doğmalıq,
elə şirinlik vardı ki səsində.
Bizim üçün özünü oda vururdu Pərvanə
və daha nə, nə…

Aidanın üzündə ay doğmuşdu,
Elə bil günəş də, Ay da
Pəncərədən söyləyirdi:
«İzn ver, biz də çıxaq, Aida!»

Bətnində ölmüş
3 aylıq körpəsini ağlayan o qadının
qıpqırmızı günəş doğmuşdu üzündə.
Göz yaşlarının sahilində çimirdi dünən.

Ona darlıq edirdi cahan
Uşaq gözləyirdi Gülcahan,
gözləyə-gözləyə qaldı…

Sarıgəlin, sarı Sevda,
bir igidin yarı Sevda,
Nələr görmüş, nələr çəkmiş,
ilk körpəsini itirmiş.

«Kifayətdir» deyib atası,
Kifayət doğulan günə,
durub gəlib Naxçıvandan,
Bu, bu yandan, o, o yandan.
Qızlar elə gözəldilər,
gözəldirlər, göyçəkdirlər,
Allah bilir nə çəkdilər…

Yumru  Lalə - qəmgin Aygün,
ürəyində sevgi və kin,
əkizdilər…
ümiddən yapışıb galmış…

7-ci palatanın 7 sakini
Bir-birini əvəz edən 7 gün kimi.
Gəlib keçdi palatadan.

Canının yorğunluğunu alan da var,
qonşu palatada,
12 ilin zillətini çıxarmağa gəlmiş kimi,
yatır gecə və gündüz,
Gülçatay adlı o qız.
Qəribə məxluqdu, seviləsi ərköyünlüyü,
özündən kirşanı, ənliyi.
Sonsuz olmayacağına söz verir həkim,
sonsuz olmaq istəmir heç kim.
Leninin kəlləsini təkrar edən həkimin
kəllə olmasına şübhəm yox əsla.
Üzündə nəyinsə sirrini gizlətsə də,
əlindən hər şey gəlir.

7-ci palata, ayın doqquzu,
Kimsə görmədi,
gecəni yuxusuz keçirən bu qızı.

## *ÜRƏYİM SƏNİ YIĞIR*

Bir ömür çözələnir,
Bir yumaq məni yığır.
Allah iş bölüşdürüb,
Əzrayıl canı yığır.

Söz tutub məni çəkir,
Bu sözün qanı çəkir.
Tanrı naz-nemət tökür,
Saçlarım dəni yığır.

Hər ömürdən qış keçir,
Hər baş üstən daş keçir,
Mən keçməzdim, yaş keçir,
Ömürdü, günü yığır.

Xəbər gəlir olandan,
Əvvəlim bəlli sondan.
Asılıb telefondan
Taledi, məni yığır.

Gözlərimdə çimirsən,
Necə oldu demirsən,
Ürəyimə damırsan,
Ürəyim səni yığır.

## *SAĞ OL Kİ, VARSAN*

Məni məndən
gözlərinin içinəcən sevirsən.
Qəlbindən qəlbiməcən olan yol
bərabərdir
bir öpüşlük məsafənin cazibəsinə
İnanmırsan, sev bax!

Rəqibsiz olduğum
yeganə məkandır könlün.
Heç kim qova bilməz məni gözlərindən.
Gözlərinə baxacağam,
evimə baxdığım kimi.
Çirklənməyə qoymayacam,
təmiz saxlayacam gözlərini.
Gözlərinin bir gözünə
sevgimizi yığacağam,
sevgi rəfim olsun.
O biri gözünə gözəl günləri...
Sağ ol ki, varsan,
sağ ol,
var ol.

Şipşirin donumu geyinəcəyəm,
Qap-qara saçlarımı açıb tökəcəyəm,
ağ günlərin birində.
Məndə acığın qalacaq.

Bir gün eynək taxacaqsan,
Aynabənd biləcəm şüşə gözlərini,
Gözünə bənd olan qızların
gözəli də,
tanımayacaq səni.

Gözlərinin içindən mənəcən,
ömürlük bir sevgi var…
Günlərin bir günündə
mən olmasam da,
çalış ki, sən olasan,
Gözlərini göz-bəbəyin kimi qoru.

## *SÖZ*

Dilimdə ilişir hər söz,
Dilimin ucunda qalır,
Bu qaş, bu kiprik, bu da göz,
Gəlir, söz gözümdən gəlir.

Nənəm mənə qarğayanda,
«Gözündən gəlsin» deməyib.
Bəs bu nədir, ağlayanda
Yaş yerinə sözüm gəlir?

İndi gərək çox ağlayam,
İçimdəki sözüm çıxsın.
Göz yaşıma bel bağlayam,
Ağlamaqdan gözüm çıxsın!

## *AZƏRİ QIZIYAM, VƏTƏN OĞLUYAM*

Torpaq ağrı çəkir azad olmağa,
Qarabağ yaralı, qəlbi dağlıyam,
Hər ana bir igid versin torpağa,
Doğrumu oturub-durub ağlayam?

Yaralı könlünün çatına dönnəm,
Bir titrək nəğmənin notuna dönnəm,
Çölün çiçəyinə, otuna dönnəm,
Kökümə bağlıyam, Qarabağlıyam.

Cavanşir nəsliyəm, ər oğlu ərəm,
Canımı istəsən, qurban verərəm,
Savaş meydanında nərə dönərəm,
Azəri qızıyam, Vətən oğluyam.

İçindən çəkdiyin doğma ahınam,
Dağda kəkliyinəm, düzdə ahunam,
Nüşabə misallı Bərdə şahınam,
Mən həm Arranlıyam, həm də dağlıyam,
Azəri qızıyam, Vətən oğluyam.

## *SAAT*

Mən vaxtı öldürürəm,
Sükutu döyür saat.
Özü öz nəğməsinə,
Nə qədər uyur saat.

Dəyirmi müstəvinin
Güman qaçır içində,
Yaman qaçır içində,
Öldürə bilmədiyim
Zaman qaçır içində.

Çərxi-fələk fırlanır,
Sayır öz saydığını.
Hər gün yüz saydığını,
Yalan çıxara bilər,
Sənin düz saydığını.

Nə dincəlir, nə yatır,
Nə də ki doyur saat.
Tıq-tıq addımlarıyla
Zamanı sayır saat.

Mən də saat kimiyəm…

## *AYRILIQ*

Saçıma hörürəm ayrılıqları,
Ayrılıq rəngini çəkib getmisən.
Dümağ çiçəkləri göyərtmək üçün,
Sən göz yaşlarını töküb getmisən.

Hər an buğda boyu artır ayrılıq,
Böyüyür yavaşca o, sən görəndən.
Mənim ürəyimlə görüşə gəlib,
Sənin gözlərini küsən görəndən.

Günlü günlərimin nəfəsi yansın,
Nazik ürəyini soyuğa verdim.
Üşüdüm ayrılıq dolaylarında,
Haçansa sevgimi ayağa verdim.

Bu gecə qavaltək götürür ayı,
Bu gecə inləyir segah üstündə.
Səni ürəyimin dərinliyindən,
Çıxara bilsəydim bir ah üstündə.

## *QALANDI BU ÖMÜR*

Görən kimin ilinə,
Calandı bu ömür,
İnanmıram sevgidən,
Talandı bu ömür.

Sağlıqlar olsun təki,
Çıxacağam bu diki,
Niyə gözün döyükür?
Dolandı bu ömür.

Gedin yeri gələndi,
Yarım qəmi böləndi,
Düzdü, Həyat öləndi,
Qalandı bu ömür.

## *SƏNƏ GÜL GƏTİRMİŞƏM*

Qələm rəngli bənövşəm,
Ürəyinə söz yazacaq.
Baxıb qara gözlərinə
ağ əllərim «döz» yazacaq.
Sözünü güllə kəsirəm,
Sənə gül gətirmişəm.

Qırılır səsin,
Cəllad əliylə dərilmiş,
cəllad çiçəklərə vurulur səsin.
Sözünün başı düşür,
Çiçəklərin ayaqları altına.
Başsız atlı kimi fikrin
baş alıb gedir…
Xəyal götürüb qaçıran
qara gözünü yaş tutur.
İllər ötür, qocalırıq,
Sonra gözünü yaş tutur,
Yaşını güllə kəsirəm,
Sənə gül gətirmişəm.

Çox olduz, mənsə təkmişəm,
Bir çiçəyin xatirinə
neçə göz yaşı tökmüşəm…

Ömrüm boyu tələssəm də,
Görüşünə gecikmişəm,
Sənə gül gətirmişəm…
Sözünü güllə kəsirəm,
gül kimi güllə…

## *UNUTMADIĞIM*

Yadımdan çıxıb təmiz,
Səni yadımda saxladığım yer.
Gəzir ömrümün küçələrini,
hansısa nömrəli gündə.

Yadımdan çıxıb təmiz,
yadımda saxladığım pinti səsin,
bilmədiyim adın,
üz verməyib,  almadığım nəfəsin.
Yadımdan çıxıb həzin-həzin
bilmədiklərim…

Yadımdan çıxıb təmiz
üzün-gözün.
Girib xəyala gəzirəm uzun-uzun.
Yaddaşıma virus düşüb
yeni adda,
Bircə sən yadımdasan…

## *ÖZÜMÜ SEVMƏYƏ VAXTIM OLMADI*

Sənin də üzündə sevgi sığalı,
Xəyalın dolaşıq, pərən, dağılı,
Sənin də gözünə həsrət yığılıb,
Nə imiş bu sevgi, nə imiş, Allah!

Allahın altında baxtım olmadı,
Tacım var altundan, taxtım olmadı.
O qədər sevdim ki, səni dünyada,
Özümü sevməyə vaxtım olmadı.

Vaxtımı sən aldın, bahadan baha.
O vaxtla qarşıma çıxma bir daha,
Səni and verirəm göydə Allaha,
Nə imiş bu sevgi, nə imiş Allah!

## *UYUDU ƏLLƏRİMDƏ*

Körpəcə ümid kimi,
Böyüdü əllərimdə,
Ayılıb ayrılmadı,
Uyudu əllərimdə.

Zaman keçdi yüyürək,
Saç ağartdı bu ürək.
Məni yandırdı, neynək,
Soyudu əllərimdə.

Şaxta döydü tökmədi,
Dünya qəmin yüklədi.
Bir kədər çiçəklədi,
Söyüdü əllərimdə.

## *LİRİK ŞEİR*

Dedin səni sevindirim,
Dedim necə?
Dedin ölüb bu dünyadan köçə-köçə.
İcazə ver gözlərini qəbir seçim.
O yol çəkən gözlərinə dolub keçim.
Dedim itirərəm səni
gözlərimə dolsan əgər,
Səni sənsiz ağlayanda
gözlərimdə olsan əgər.
İtirərəm, ən qiymətli inci kimi,
İtirərəm gözümün sevinci kimi,
Dedin onda icazə ver
saçlarında ağa dönüm,
Gecə kimi qara teldə
bir yanar çırağa dönüm.
Dedim itirərəm səni
qara tellər ağaranda,
Ağır olar mənə, ağır,
Səni belə axtaranda.

Dedin bəlkə ürəyinə dolum sənin,
bir ömürlük nəğmə kimi
həmişəlik olum sənin?
Susdum, daha söz tapmadım,
Tapdım səni, tapdım o an!
Gör səni necə, nə yaman,
ürəkdən dəyişib zaman.

## *NƏ YIĞMISAN*

Nə yığmısan əlimdən,
Barmaqlarım yerində.
Çəkdiyim rəng yerində,
Dırnaqlarım yerində.

Lillənmisən, çökmüsən,
Hirsinə su tökmüsən.
Ayağımdan çəkmisən,
Ayaqlarım yerində.

«Tilsimi qır» deyirəm,
Görürəm, kor deyiləm.
Qışqırma, kar deyiləm,
Qulaqlarım yerində.

Fal açmadı falçılar,
Dil bilmədi yolçular,
Gəldi, getdi elçilər,
Qonaqlarım yerində.

## *KİLİDİNƏ ÜRƏYİMİN*

Kilidinə ürəyimin
Açılmayan mücrü kimi,
Sənin açarın düşmədi,
Ulduzumuz barışmadı.

Barışdı Ay Günəş ilə,
Barışdı Su Atəş ilə,
Barışdı Ocaq Daş ilə,
Bircə biz barışmadıq.

Buz bağlayan ürəyimə,
Selə dönüb axsın deyə,
Sənin baharın düşmədi,
Sel-su olub ötüşmədi.
Suya dönüb axa-axa,
Gözüm sənə baxa-baxa
ağlayacam.
Ürəyindən daş asacam, bağlayacam.
Bu yükü sən də çək deyə,
Gözümə sən də çök deyə,
gözüm sənə baxa-baxa ağlayacam.

Səni belə dağlayacam,
Səni belə dağlayacam…

## *DAYANIRAM MƏN*

Bel bağlamaram köçə,
Bir karvan ümid keçə,
Öz içimdəki gücə
Dayanıram mən.

Çağla bulaq səngimə,
Yığıram səhəngimə,
Dolduqca söz rənginə
Boyanıram mən.

Yaratmışdım özümdən,
Gördüm düşdü gözümdən,
Dünyanın o üzündən,
Oyanıram mən.

Dərd ölüb ilə dönmür,
Lal ürək dilə dönmür,
Alovum külə dönmür,
Ha yanıram mən.

## *DÜNYA VƏ RƏNGLƏR*

Bizim eradan əvvəl,
ibtidai icma dönəmində,
Bir rəngdəydi dünya – qara.
Qara porpaq və yığıcılar,
qara heyvan və ovçular.
Qara sular və qara dənizlər,
Bir də,
bizə gəlib çatan - qara izlər.

İki minillikdən əvvəl,
nağıllar dönəmində,
iki rəngdəydi dünya – ağ və qara.
Ağ dünya, qara dünya,
Ağ qoç, qara qoç.
Ağ dəniz, Qara dəniz,
Ağ sevda, qara sevda.

Bizim müstəqillikdən əvvəl,
Sovet dönəmində,
Üç rəngdəydi dünya –
ağ, qara və qırmızı.
Ağ-qara şəkil,
Ağ-qara göz yaşları,
Qırmızı fikir.

Bizim eradan sonra,
sizin eranızda,
Rəngsizdi dünya –
Rəngsiz insan,
Rəngsiz göz yaşları,
Rəngsiz fikir…

## SƏNƏ GÜL GƏTİRƏRDİM

Sənə gül gətirərdim,
İndi özüm gəlmişəm,
Özümə gül deməyə,
Gəldi üzüm, gəlmişəm.

Yaş ömür biçinində,
Yığılacaq suçun da.
Gözlərin su içində,
Necə üzüm gəlmişəm.

Ayrılıqlar gen olsun,
Bu gün ayrı gün olsun,
Gözlərin aydın olsun,
Qaragözlüm, gəlmişəm.

Hanı o yurd ondakı,
Öldürdü bizi Bakı,
Bu ölümdən sonrakı
Həyat bizim, gəlmişəm.

## *DOSYE*

Sürəti sevirdin cocuqluğunda.
Şirin qonşuluq edirdi
evinizlə məktəb,
həyatinizlə stadion.
Don geyinməzdin,
şalvarı sevirdin.
Sürət götürərdin,
keçərdin üstündən çayırların, otların,
keçərdin üstündən itirdiyin saatların,
velosiped üstündə.

Cənnəti sevirdin,
dos-doğma ananın ayaqları altındakı.
Aldı onu Bakı…
Sən ananın sağ əliydin,
nə ağıllı kimi ağıllı,
nə dəli kimi dəliydin.
«Qızıl orta»da dururdun,
ortancıl qız postunda.

Zinəti sevirdin,
qızıldan ürəyin vardı…
Okean mirvarisindən göz yaşların,
Zümrüd, Firuzə yaşıdların.
Qara brilyantdan bəbəklərin,
silsilə kipriklərin,

zəncir-zəncir saçların vardı.
Coğrafiyadan dərs deyən Alı müəllim
heyran idi idrakına,
deyərdi ki, «qız deyil, qızılsan!»
Qaşların qılınc siyirib
qiymətsiz incilərin keşiyində durardı,
gözlərinin üstündə.
Ürəyini aldılar…

Ülfəti sevirdin,
Homerin Axillesi,
Dədə Qorqudun Bamsı Beyrəyi,
Covanyolinin Spartakıydı
dostun da.

Diqqəti sevirdin,
Anaya diqqəti, ataya diqqəti,
bacıya, qardaşa diqqəti,
ota, çiçəyə, daşa diqqəti.
Bir sinifdə oxuduğun yoldaşa diqqəti.
Nə qədər diqqət payladın,
özünə lazım olanda
tapılmadı üstündə.

Mədəniyyəti sevirdin,
Azıx mağarası,
Qaraköpək təpəsi,
Məndilli körpüsündən
keçib gələn milyon illik mədəniyyəti…

Qarabağ şikəstəsini sevirdin,
Zilini də, pəsini də.

Çıxdın o müstəvidən
düşdün bu müstəviyə.
Bir yol gəldin vaxtlı, vaxtsız,
bəxtli, bəxtsiz,
torpaqlı, torpaqsız.
Özünlə daşıdın hər şeyi,
süräti, zinəti, cənnəti,
ülfəti, diqqəti, mədəniyyəti,
daha hansı niyyəti, …iyyəti,

Bircə
Çocuqluğunu əmanət qoyub gəldin,
kəndinizin gözündə.
Əmanəti sevirdin,
sevirdin əslində.

## *ÇÖL ADAMININ QEYDLƏRİ*

Axşamın soyuğunda
Nə gəldi ürəyinə,
nə getdi bu gecədən,
nə pis darıxdım, Allah!
nooldu mənə belə…

Gəldi yadına düşdü,
yağışa düşməyiniz.
Bu quru candan başqa
nəyiniz var, nəyiniz?
Çətiriniz belə yox, bu şəhərdə.

Bir az da ondan əvvəl,
bir mənziliniz vardı,
Xətirli-hörmətli adamlar
aldılar əlinizdən.
Biri vardı,
Hamı vardı,
Sən var idin,
Anan vardı.
İndi ananız yoxdu deyə,
xətiriniz yox, bu şəhərdə.

Lap bir az da ondan əvvəl,
Gecəgözlü kəndiniz vardı,
gözləri kömür rəngində

itiniz vardı.
Evinizin dupduru pəncərə gözləri,
kömür rənginə dönüb,
Siz çıxandan gecə köçüb içinə.

Lap bir az ondan da əvvəl
heç sən də yox idin,
Atan-anan vardı,
erməni-urus vardı,
evinizi erməni ustası tikmişdi,
Elə onlar da yıxdılar.

Lap əvvəldən də əvvəl isə
Allah var idi…
İndi allahsızlar çoxdu.
İndi heç nəyin yoxdusa da,
başın üstə Allah var.
Sən Allah adamısan.
Sən ev adamı deyilsən,
sən çöl adamısan.
Çöldə darıxdın,
yolda darıxdın,
bir az da evdə qaldın,
evdə darıxdın.
Darıxmaq var, darıxmaq…

Atan deyərdi ki,
Qızlarımın evdarı sənsən.
İndi sən ev adamı deyilsən!

## *SƏNİN DRAMIN NƏDİR*

Dayan bir ay vəfasız,
Sənin dramın nədir?
Yazmısan səssiz-səssiz,
Sənin dramın nədir?

Saçların gecə, susur,
Ayrılır heca, susur,
Bir kəlmə necə susur,
Sənin dramın nədir?

Alnında sətir, düyün,
Səhnəyə gətirdiyin,
Üzündə bitirdiyin
Sənin dramın nədir?

Deməzdim yıxılmısan,
Arada sıxılmısan.
Söylə görüm sən kimin
qələmindən çıxmısan,
Sənin dramın nədir?

Gözün gedər yallı, qız!
Əlləri xəyallı qız,
Ay ürəyi xallı qız,
Sənin dramın nədir?

Dodağında köz yanır,
Közün içrə söz yanır,
Şəm kimi bir qız yanır,
Sənin dramın nədir?

Cizgini Allah çəkib,
Çəkə-çəkə ah çəkib,
Bir dəli segah çəkib,
Sənin dramın nədi?

Sona çıxa bilmədim,
Getdin, baxa bilmədim,
Qayıt, axı bilmədim,
Sənin dramın nəydi.

Döndün, boynun büküldü,
Telin üzə töküldü,
Son pərdə də çəkildi,
Sənin dramın nəydi,
Sənin dramın nəydi?

## *PLAZMA 2*

Gecəni gözləyirəm …
qaranlığın içində böyüsün bəbəklərim.
Gecəni gözləyirəm,
işıqlı fikirləri itirmişəm gecədən.
Əlimdən heç nə gəlmir,
hərdən yuxusu gəlir
böyümüş bəbəklərin.

Gecəni gözləyirəm
gecə olana qədər…
yuxumu qaçırmağa gələcək ürəyim,
şeir qoxusu gəlir
qaçırılmış yuxulardan.

Gecəni gözləyirəm….
Bir muğamat üstündə
götürəcək qaval tək
göydə dəyirmi ayı.
O qız da Aya oxşayırdı,
göydə götürdülər.

Siz, ey şəhərdə olanlar,
Siz, ey səhərdə olanlar!
Gecəyə yığılanda,
işıqlı fikirləri yandırmağı
unutmayın!

Azarsınız,
çəkisiz fikirləri çəkməyi unudun.

Yox olmur fikir unudulanda,
başqa hala keçir,
fikrin qəti və qatı halından
buxar halına.
Buxar görünmür axı…
Fikrində mən də varam
unudulsam gözünə görünmərəm,
yadında saxla.

Gecəni gözləyirəm…
İşıqgələnə yüyürməkçün,
yana-yana şeir gəlir
fikrin plazma halında.

## *ZƏRF*

Həyat
əvvəllə axır arasındakı ortadır,
insanlar ortadakı top.

Top insanlar toplum olur,
toplum içrə
torpağı ayaqlarınla yox,
alnınla öpə bilirsənsə,
Tanrı dərgahında
sən varsan demək.

Keçidlərdə keçir həyat,
yaşdan-yaşa keçid,
qışdan bahara,
bahardan qışa keçid.
Quruluşdan quruluşa keçid,
Başdan-başa keçid ömründə
qırdığı divarların
sərt üzü pul-pul olub
töküldükcə
bərkiyir İNSAN.

Top insanlar toplanan olur,
Dəyişir toplananların yeri,
cəm dəyişmir,
dəyişə bilirsənsə cəmi,
sən varsan demək.

Toplum içrə torpağı
torba-torba yox,
ürəyində daşıya bilirsənsə,
varsan demək.

Həyat
əvvəllə axır arasındakı ortadır,
insanlar ortadakı top.
Fələk hara istəsə atar onu,
kimini əvvələ,
kimini axıra…
Bölüşər **zaman zərfi**ni,
kiminin **əvvəli**, kiminin **axırı** olar.
Sənin zərfindən nə çıxdı?

*Əsəd CAHANGİR*

## *BANU ÇİÇƏK SƏN DEYİLMİSƏN?*

Bir neçə il öncə yayımlanan «Adamlar» şeir kitabının müəllifi Həyat Şəmini universitet illərindən tanıyıram. Tanıyıram deyəndə ki, biz, əslində, tanış deyildik, ayrı-ayrı bölümlərdə oxuyurduq – o, tarix, mən filologiyada. Gur saçlarını kürəyinə tökən, üz-gözündə onu başqalarından dərhal seçib-ayıran qədimiliklə Leyla Şıxlinskayanın durna boğazlı Banu Çiçəyini xatırladan bu qızı adətən asılqanda - paltolarımızı verəndə, ya alanda görərdim.

Həyat «ultramodnı» qızlardan deyildi. Elə bu ciddi sadəliyi ilə də çoxluqdan seçilər, tanımadıqlarında belə rəğbət oyadardı. Hiss edərdin ki, bu qızın çevrənin hay-küyü, kosmos əsrinin başgicəlləndirici sürətindən kənar, həm əlçatmaz qədər uzaq, həm də çox doğma, sıcaq bir aləmi var və o, bizim dünyaya sadəcə ayaqları ilə toxunur, ürəyi isə oranın ritmi ilə döyünür. Mən onu kübar xanımlarının uzun ətəkli paltarlarında, başında şlyapa təsəvvür edərdim, özü də metro, ya avtobus yox, karetada gedən yerdə. Yox, onun zamandan geri qaldığını demir, sözün söz adamından getdiyi yerdə isə «irəli» və «geri» anlamlarının şərtiliyini anlayıram. O, ünlü uşaq filminin personajları kimi çağdaşlığın sehirli xalatına bürünüb sanki öz zamanından bizim dövrə düşmüşdü və bu zamanların hər ikisində yaşayırdı - birinin içi, o birinin dışında.

Bu yadzamanlı qızın kənd, ya şəhər, zəngin, yoxsa kasıb ailədən olduğunu da deyə bilməzdin. Mənə elə gələrdi ki, o, kəndi də, şəhəri də, zəngini də, kasıbı da özündə birləşdirən mənəvi bir məkandan - kübar ziyalı çevrəsindən çıxıb, ən azı, ən azı hansısa professorun qızıdır.

İllər ötdu, bizim aspirantura dövrümüz də eyni vaxta düşdü. Sonra onun fərqli mətbu orqanlarda işıq üzü görən şeirlərini oxudum. Həyatın həyatımıza həm oxşayan, həm də oxşamayan dünyası qarşımda şeir-şeir açıldı. Bəli, özgürlük dövrünün kardinal devrimləri, sürətlə özgələşən meyarlar həyatımızı da, Həyatı da getdikcə daha çox dəyişir, amma dəyişən həyatımızın da, Həyatın da yalnız dışıdır. Asılqan önündə güzgülənən qız özünə sadiqdir, ona yüzlərlə ad içində sayılıb-seçilən şair imici qazandıran şeirlərini də bu sədaqət üstündə kökləyir. Şlyapalı kübar xanım isə indi onun şeirlərində yaşayır: sevir, qısqanır, əzab çəkir, düşünür, üsyan bayrağı qaldırır, hərdən də gülümsəyir. Həyatın xarakterindəki çiçək kövrəkliyi və qranit sərtliyi onun hər misrasında duyulur.

Həyat biryönlü, birplanlı, monoton şair deyil. Onun şeirləri həyatın özü kimidir – rəngarəng, biçim, növ, mövzu məhdudiyyətindən kənar. O, gələnəksəl hecaya da, modern üslublu özgür şeirə də üz tutur; insanın virtual könül aləminin əksi olan lirik şeirlər də, toplumun vizual mənəzərəsini göstərən epik şeirlər də yazır; məhəbbətə də, toplumsal - siyasi tematikaya da yer verir.

Mən bu yazıda Həyatın son dönəm şeirlərindən danışmaq fikrindəyəm. Çünki bu şeirlər ilk kitabın-

dan sonrakı Həyatın bədii düşüncəsində gedən gəlişməni aydın göstərir, istər mövzu genişlənməsi, istər də fikir dərinləşməsi yönündən. Öncəki şeirlərində daha çox xalq poeziyası biçimlərinə üz tutan, lirikaya köklənən Həyatın bu işlərində diqqəti çəkən epik təhkiyəyə meyl, modernistik biçim axtarışları, impessionist ovqat, ekzistensial ruh, hətta metafizik düşüncə notlarıdır. Bu yenilik axtarışlarında şairin başarılı olduğu və olmadığı məqamlar var. Amma, məncə, önəmlisi bu şeirlərin müəllifinin yerində saymaması, bir addım irəli atıb ən azı özü-özünü keçməsidir.

Həyatın modernistik biçim axtarışları ən qabarıq ifadəsini «Kimlik» şeirində tapır. Şair Bakıya həsr etdiyi bu şeirdə dəftərxana sənədi stilini seçir. Əvvəldən-axıra qədər metaforik düşüncəyə dayanan şeirdə şəhər insan kimi anılır və onun kimlik vəsiqəsi doldurulur:

Soyadı: Azərbaycan
Adı: Bakı
Atasının adı: Tarix
Doğum tarixi: Erkən orta əsrlər
Doğulduğu yer: Abşeron yarmadısı
Ailə vəziyyəti: bakirə

Şeirin gizli daxili dramaturgiyası var və bu dramın özülündə «pasportstolla» şairin konflikti durur. Quru, statistik dəftərxana stilinin qabarıq göründüyü yuxarıdakı parçada hələ «pasportstol» impulsu aparıcıdır. İkinci parçada qüvvələr nisbəti tarazlaşır, dəftərxana kalkası bədii semantika ilə daha

qabarıq yüklənir, buna uyğun emosional ton qalxır və bu duetdə şairin diksiyası daha aydın eşidilməyə başlayır:

Qara qızıl axır damarlarında
Qara, qapqara qanı müsbət birdir.
Xəzər boyda iri gözlərinin rəngi mavi,
Boyu uca, Bayıldan Biləcəriyə qədər,
Hərbi vəziyyəiti: qəhrəman şəhər.

Finalda bütün bu gizli daxili tamaşadan doğulan səslər qəfil kəsilir və dəftərxana kalkasından sıyrılıb çıxan şarin az qala pıçıltı ilə dediyi sözlər zalın o başında da eşidilir. Sənədi «pasportstol» doldurur, sənətin möhürünü vuran isə şair olur:

Bakı, Bakı…
Səni o qədər sevdim ki…

Düzdür, Həyat coğrafi-tarixi çevrədən kənara çıxmır, Bakının çağdaş toplumsal-siyasi, mənəvi-psixoloji durumunu sənədləşdirmir. Şairin birbaşa öz sahəsi olan bu duruma işıq sala biləcək «Ailə vəziyyəti: bakirə» misrasının altında özəl olaraq nələrin durduğu isə aydın olmur. O, Bakını sadəcə insan kimi təsəvvür etməklə kifayətlənir. Bakının timsalında onun insanları, genəlliklə, Azərbaycan insanının kimliyi isə doldurulmur. Bizcə, bu, Həyatın bədii sənədini daha uğurlu poetik sənətə çevirə bilərdi. Və Bakı özünün ildırım sürətiylə dəyişən hazırkı durumu ilə buna bəsdi deyincə söz konusu verirdi. İndiki halda isə bizə müəllifin uğurla

sonuclanan forma axtarışından danışmaq qalır. Amma «Bakı əziz şəhər, mehriban diyar» tipli patetikaya köklənmiş yüzlərlə bayağı tərənnüm şeirindən sonra bu modern biçimləmənin özü də Həyatın uğurudur. Və o, bu uğur hesabına şeirə ən yad forma – dəftərxana sənədinə də poetik sənəd hüququ, bədii kimlik vəsiqəsi verir, ən antipoetik formanı poetikləşdirir.

Konkret həyat faktları və Pərvanə, Aida, Gülcahan, Lalə, Aygün kimi real prototipləri olan, gerçək ünvanlı, epik üslublu «Yeddinci palata» şeiri də Həyatın bir fərd olaraq yenilik axtarışları kimi yadda qalır. Bəs bu axtarışlar bütövlükdə şeirimizə nə verir? Bu sorğuya birmənalı cavab vermək çətindir. Üstəgəl burda bir çox təsir notları da duyulur.

Həyatın son şeirlərində qabarıq görünən öncəkilər üçün səciyyəvi təbii şair ilhamı və poetik stixiyanın öz yerini daxili bir dramtizmlə müşayiət olunan səssiz düşüncə axarına verməsidir. Sözsüz ki, burda müəllifin itirdikləri kimi qazandıqları da var: səsin amplitudası düşür, əvəzində düşüncə dərinləşir. O, çoxəsrlik, gələnəksəl biçimlərdən getdikcə daha çox imtina edir, min yol işlənmiş obrazları yeni tərzdə işlədir. Məsələn, qadının qaşının hilala bənzədilməsi klassik ədəbiyyatdan üzü bəri dəfələrlə işlənmiş bir trafaretdir. Amma bu təşbeh-trafaret Həyatın «Gecə kirpikli qadın» şeirində yeni çalar qazanır:

Gecəni sevə-sevə
Gözlərinə köçürmüşdü,
Gözü üstə yer vermişdi bir cüt hilala
Gecə gözlü qadın.

Bir bulud doldurmağa,
Bir sevgi yağdırmağa
vaxtı yox idi,
gecəsi-gündüzü yox qadının.

Evsiz-eşiksiz, bağsız qalmışdı,
yurdsuz-yuvasız, torpaqsız qalmışdı,
Qarabağsız qalmışdı,
qarabağlı qadın.

«Vaxtı yox idi» ifadəsi altında zamanın maddi, «gecəsi-gündüzü yoxdu» ifadəsilə isə «mənəvi» yoxluğundan söz gedir. Şair bu iki qütbü eyni kontekstə salır, xalq dilində çoxəsrlik cilalanma hesabına məcazi anlam kəsb etmiş, daşlaşmış formula mətndaxili yeni anlam verir, linqvistik arxeologiya, yaxud frazeoloji istismar işi aparır. Eyni sözü şairin «gözüm üstə yerin var», yaxud «gözünün üstündə saxlamaq» kimi daşlaşmış ifadəni özünün ilkin anlamına qaytarmasına da şamil etmək olar. Axı «bir cüt hilal»ın – qaşların yeri, doğrudan da, gözün üstüdür. Vaxtilə bu frazemlər məhz özünün müstəqim anlamında da işlənib. Şairi dil minillər boyu onu məcazi anlam tilsiminə salıb. Çağdaş şairin bir vəzifəsi də dilin tilsimini sındırmaq, sözü özünə qaytarmaqdır. Hər şey öz kökünə qayıdıb ordan güc aldığı kimi, söz də öz kökündən yenidən cücərir.

«Gecə kiprikli qadın» şeiri gizli bir aldanış dramı üstündə qurulub. «Hilal qaşlar», «gecə gözlər» ifadəsini oxuyan oxucu ənənəvi vərdiş üzrə söhbətin sevgi iztirablarından getdiyini zənn edir. Gözlənilməz açılış söhbətin evsiz-eşiksiz, yurdsuz-yuvasız qara-

bağlı qadından getdiyini aşkarlayır və oxucu aldandığını yalnız finalda başa düşür.

Maddi və mənəvinin paralel dərki və təqdimi Həyatın bədii düşüncəsində gedən dərinləşmənin göstəricisidir. Bu paraleldə maddilik zahiri görüntü və formanın, mənəvi isə mahiyyət və anlamın ifadəsinə xidmət edir. Yuxarıdakı şeirdə maddi və mənəvinin qarşılaşdırılması linqvistik qatda gedirdi, hələ bir sözüydü. Bəzi şeirlərdə isə bu qarşılaşma eşidilməkdən başqa, gözlə də görülür, konkret predmetlər hesabına əyaniləşir. «Gəlin köçən qız» şeirinin srukturoloji özülündə əvvəldən axıra qədər bu görümlü paralellik durur:

Xınalı əllərin əlcəkdə,
gəlin olacaqsan gələcəkdə,
«Vağzalı» sədasına köklədin taleyini…
Arzuların nə kökdəydi bəs,
gəlin köçən qız?

Uzun-uzadı «Vağzalı»,
aram-aram yollar,
həzin-həzin yerişin…
Zaman nə ahəngləydi bəs,
gəlin köçən qız?

Ağappaq gəlinliyin,
qapqara saçların,
qıpqırmızı bel bağın…
Bəxtin nə rəngdəydi bəs,
gəlin köçən qız?

Ata ocağından ömürlük ayrılığın şüuraltı ağrısı və ürəyin əleyhinə qurulan ailənin kədərinə qoşulan şeir bütün zahiri həzinliyinə rəğmən güclü daxili dramatik lada söykənir. Bir tərəfdə xınalı əllərə taxılmış əlcəklər, sümüyə düşən «Vağzalı» sədaları, ağappaq gəlinlik, qırmızı bel bağı, o biri yanda insanın bu zahiri xoşbəxtlik aksessuarları ilə diametral əks daxili dünyası – gözündə qalan arzuları, naməlum bəxti, məchul taleyi… Bu antiqütblər arasındakı körpü – mediator isə zahiri toy təntənəsini özgəyə məxsus bir şeylər kimi kənardan seyr edən gəlindir. Şair iç-dış qarşıdurması haqda danışmır, onu əyani olaraq göstərir, insanın zahiri portretinə paralel onun daxili həyəcan və iztirablarını da zərif, akvarel cizgilərlə rəsm edir. Və bu iki qütbün qarşılaşmasından doğan silsilə təzadlarda insan taleyindəki ziddiyyət üzə çıxır.

Yaxşıdır ki, Həyat insanın taleyində ənənəvi sosial ittiham pafosundan, fərdin səadəti yolunda əngəl olan «nadan, amansız cəmiyyəti» qınaq fəlsəfəsindən uzaqdır. Gəlin köçən qızın toy səhnəsində bir insan, bir də onun alın yazısı var. Çevrədəkilər isə öz taleyi ilə dialoqa girmiş insan ətrafında fon yaradan anturajlar, bəlkə də cansız rekvizitlərdir, xınalı əllərə taxılan əlcəklər, ağ gəlinlik, qırmızı bel bağı səhnə geyimləri olduğu kimi… İnsanın səssiz fəryadının sual hissəsi mətnə düşür, cavab hissəsi isə yox. Amma aysberq kimi mətnin də görünməyən tərəfi alt qatda ağır-ağır üzür, onu görməsək də, bilir, hər bəndin sonunda gəlin köçən qıza xitabən verilən sualların mətnə düşməyən cavabını aydın «oxuyuruq» - bu qız Banu Çiçək taleyini yaşayır.

Gəlinin ağır-ağır yerişinə uyğun zahirən asta və təmkinli, daxilən ləngərli və təlatümlü ritm, silsilə təzad və suallar kimi bədii ifadə vasitələrini çıxsaq, «Gəlin köçən qız»da şeirə məxsus çox az şey var: nə ayağı yerdən, başı buluddan nəm çəkən mübaliğələr; nə gözlənilməz təşbehlər; nə qeyri-adi bir fikir. Əvəzində burda insanın taleyi və onun səmimi ifadəsi ilə üzləşirik. Gözəl, təmtəraqlı danışıq ədası, hansısa poetik kəşflə oxucunun beynini dumanlandırmaq şerin müəllifinin eyninə deyil. O, hər cür bayağı sentimentalizmdən uzaq bir dillə, pıçıltıya enəcək qədər həzin tonda insanın ağrısından danışır. Akutaqava yazırdı: «Şair hamının qarşısında ürəyini açan adamdır». Müəllif bu şeirdə ürəyini açır və bu urəyiaçıqlıq oxucunun da urəyinə toxunur. «Gəlin köçən qız» yaşanmış hisslərin sonucudur, onun gücü də müəllifin iç yaşantılarındadır. Şeirin poetikası son dərəcə sadədir, amma kasıb deyil, çünki onun poetexnoloji bədəninin altında gözəgörünməyən, amma varlığına heç bir şübhə doğurmayan ruhu – poeziyası var.

Həyat əksərən şeir üçün mövzu gəzmir, gündəlik yaşamın adi məqamları özü gəlib onu tapır, söz konusuna çevrilir, monoton gerçəklik bədiilik statusu qazanır. Torqovı mənzərələrindən ibarət «Yazılmayan şeir»də olduğu kimi.

Epik təhkiyə, impressionist çalar, ekzistensial duyumlu bu şeir müəllifin çoxplanlı düşüncə qatına keçməsini göstərir. «Gəlin köçən qız» şeiri Həyatın türküsüydü, «Yazılmayan şeir» isə həyatımızın simfoniyasıdır. «Gəlin köçən qız» insanın qədərlə söhbətiydi, «Yazılmayan şeir» isə fərdin topluma

üsyanıdır. «Gəlin köçən qız» toy aksessuarlarından ibarət fərdi tale natrümortuydu, «Yazılmayan şeir» isə toplumsal tablodur. Və bu mənzərənin qəhrəmanı bütün mənəvi-əxlaqi parametrləri ilə çoxluğa qarşı duran, hər şeyin «torqa» qoyulduğu Torqovı küçəsində, bazara çıxarıldığı Bazar meydanında, alınıb-satıldığı marketinq dönəmində qəlbin əzəli-əbədi qanunlarına söykənib sədaqətsiz, vicdansız alış-veriş dünyasına qarşı daxili bir üsyan bayrağı qaldıran fərddir.

Qısa zaman kəsiyindəki fərqli həyati fraqmentlərdən ibarət şeir zahirən səssiz bir lövhə ilə başlayır:

Əvvəl
ömrü boyu çəkə bilməyəcəyi
bir rəsmin önündə
quruyub qaldı
saçlarının ucunacan.
Qurutdu onu
rəssam əlindən süzülən rənglər.
Sonra
narın-narın yağan yağış islatdı.
Addım-addım uzaqlaşdı o rəsmdən.

Sənət «problemini» ikinci parçada sevgi əvəz edir, incə sənətin yaradıcı şəxsə vurduğu «zərbənin» üstünə «kafir qızına» uyub öz sevgisini unudan çağdaş Beyrəkdən gələn zərbə əlavə olunur:

Bu heyrətdən ayılmamış
küçəni keçən zaman
sevdiyi gənci

heç zaman yerinə ola bilməyəcəyi
bir qızla gördü…
O cütlər gözdən itənəcən,
o yağış kəsənəcən,
quruyub qaldı yerindəcə.

Keçdi küçədən,
keçdi yağışdan,
keçdi sevgidən…

Sənətdən həyata keçid fərdi-şəxsi planda başlayır. Unudulmuş qız vəfasızlıqların acığına təkcə cəmiyyətin rəmzi olan küçə və təbiətin rəmzi olan yağış yox, həm də ürəyin rəmzi olan fərdi sevgidən vaz keçir. Görünən və görünməyənin, eşidilən və eşidilməyənin sərhəddini pozmağı sevən şair qızımız isə öz üslubuna sadiqdir. Amma bu dəfə maddi və mənəvini qarşı-qarşıya qoymaq yox, eyni semantik axara salmaq şərtilə. «Küçə» kimi maddi məkan, «yağış» kimi görümlü hadisə ilə sevgi kimi mənəviyyat rəmzinə eyni bir «keçdi» sözüylə vahid semantik rakursdan baxan şair şeirin növbəti parçasında özü də keçid etməyə başlayır – fərdi-psixoloji qatdan toplumsal müstəviyə:

Duymadı bunu
«Torqovı»nın insan əlindən
təngə gəlmiş o daş küçəsi də.
Heç zaman geyinə bilməyəcəyi
bir geyimin önündə

ayaq saxlayıb içəri keçdi.
Ürəksiz maneken qürrələnirdi
əynindəki geyimin zövqü altında.
«More exspensive» deyib
eşiyə çıxdı.
Küçələr daşa dönmüşdü,
evlər yaş daşa dönmüşdü,
ayağının altınldakı daş
daşa dönmüşdü.

Həyat toplumsal sorundan açıq pafosla danışmır. Torqovının daş küçələri daşürəkli toplum, geyimilə qürrələnən maneken isə yuxarı təbəqə adamlarına işarədir. Arzuladığını geyə bilməyən qız maneken ürəkli «elita» ilə qarşılaşdırılır, sürətlə kapitalistləşən bir şəhərdəki toplumsal haqsızlığa üstüörtülü işarə olunur. Ayaqlarını Qarabağda qoymuş gənc, Torqovının daş küçəsində oturub ləyaqətini torqa qoyur – ikiayaqlılar qədər insan duyğusu, torpaq qeyrəti olmayanlara əl açır. Protez ayaqlar daşı, əlil qəhrəman eyş-işrət içində qaynayan Torqovı əhlinin ürəyinin daşdan olmasını duymur. Bu mənzərədən sarsılan qızın fərdi ağrısı nəinki dünyaya, yaşama nifrətlə əvəzlənmir, əksinə, konkret şəxsə ünvanlanmaqdan çıxıb genəlliklə insana, torpağa sevgi çevrəsinə keçir:

Ayaqlarını
torpağa əmanət vermiş
bir qəhrəman
hiss etmədi daşların

daşa dönməyini.
Əl açdı
ikiayaqlılara,
ürəklər
daşa dönmüşdü.

Öndən sonacan fərd-toplum dramına köklənən şeirin dramaturji də finalı var. Şair klassik dram qanunlarına uyğun finalda bütün «personaj»larını bir yerə yığır. Sevgisinə xəyanətkar oğlanla, vətən sevgisi naminə ayaqlarını itirən əlil, ölümsüz sənət əsəri ilə gəldi-gedər zövqə dayanıqlı moda bir-biri ilə diametral əks qütblərdir. Lakin onlar həyatımızın ayrılmaz parçalarıdır və elə ayrılmaz şəkildə də Həyatın şeirinə daxil olurlar. Gerçəkliyin zidd məqamları şeirdə birləşir, ziddiyyət sözdə də olsa, öz «həllini» tapır:

Bundan sonra
gördüklərindən qaçmaq istədi.
Elə qaçdı ki,
kölgəsi də çata bilmədi ona.
Nə qədər qaçsa da,
nə o rəsm, nə o gənc, nə o geyim,
nə də o əlildən
uzaqlaşa bilmədi.
Heç kəsin yaza bilməyəcəyi
bu şeiri yazdı
o günü…

«Yazılmayan şeir»də çağın gətirdiyi xaos fikrin dışındadır, strukturoloji biçim isə altyapıda özünü

saxlayır. Bu, doğal başlanğıca, qarşıdurmaların düyünlənməsi, gəlişməsi, kuliminasiyası, açılışı və finalına malik bitkin mətndir. Bu orkestrdə istənilən obrazın öz yeri və vaxtı var: lazım olanda əl saxlayır, lazım olanda genəl ahəngə qoşulurlar. Heç nə anlamsız yerə mətnə girib yoxa çıxmır, hər şey nəzərə alındığı kimi, heç nə də unudulmur və bütövlükdə çalğı alınır. Dirijor isə gerçəkliyin özüdür. Bu, yazılan yox, reallığın özündə yaşanan - «yazılmayan şeir»dir. Bütün polifoniyası ilə birgə şeirin məntiqi sonluğundan doğan ideyanın aydınlığı da mətnin bütövlüyündən gəlir:

- dünyada heç nə, hətta iki qum dənəsi belə birbirini təkrar etmir və bu təkrarsız dünyada hər insanın təkrarsız da yeri var. Şeirin qəhrəmanı olan qız da dünyada heç kəsin yaza bilməyəcəyi «yazılmayan» şeiri yazmağa qadirdir. Şair burada təkrarsız anın həqiqəti, yaxud anın təkrarsız həqiqətindən çıxış edir. Nə keçmiş, nə gələcək yox, keçmişdə olmamış, gələcəkdə olmayacaq inidiki an var və ən böyük həqiqət bu ekzistensial anın təkrarsızlığını dərk etməkdir.

Şeirin dili ikinci, bəzən isə üçüncü məna planı, düşündürücü sətiraltı semantika ilə səciyyələnir. Qızın küçədən keçməsi səhnəsində müəllif eyni bir «keçdi» sözünü fərqli məna qatlarından keçirir, sözün yükü misra-misra ağırlaşır. Birinci misrada qızın küçəni keçməsindən danışılır. İkinci misrada müstəqim mənanın dominantlığı qalmaqla onun üstünə məcazi məna qatı yüklənir: xəyanətlə üzləşmiş qız sevginin yağışı, xəyanətin soyuğundan keçir. Üçüncü misrada söz müstəqim məna qatından tam çıxaraq məcazi və

ikiqat frazeoloji semantika dairəsinə keçir: qız sevgi deyə anılan bir yolu xəyanət finişinə qədər keçir, onun hər üzünü görür; sevdiyindən vəfasızlıq görən qız bu sevgidən vaz keçir; nəhayət, qız «bundan sonra mənimki ümumən sevgidən keçdi, bir daha sevmərəm» qərarını verir.

Eyni semantik polifoniyanı daş obrazına münasibətdə də görmək olur. Mənəvi yadlıq girdabına düşən insan hara, nəyə baxırsa daş görür. Hətta daşların özü də onun gözündə təkrar daşlaşır… Hər hansı bir şeyə onun özü vasitəsilə dəyər vermək taftologiyadır. Bədii dilin məcazilik statusu hesabına isə daşın daşa dönməsi taftologiya yox, mənəvi daşlaşma prosesinin doğurduğu ağrının ifadəsini son həddə çatdırmaq üçün linqvopoetik üsul, impressionist çalar kimi meydana çıxır. Əlil qəhrəmanla bağlı parçada yeni söz yaradıcılığı ilə rastlaşırıq. «İkiayaqlı» sözü mətndə işləndiyi anlamda dilin lüğət tərkibində, əslində, yoxdur. Şair onu heyvanlara aid «dördayaqlı» sözünün mutant anoloqu kimi düşünüb. Kölgə obrazı ilə bağlı isə müəllif mübaliğə yaradıb. Lakin mübaliğənin bütün şiddəti ilə bərabər reallıq ölçüsü qorunub saxlanılır, bədii məntiq elmi əsasa söykənir, obrazlı düşüncə gerçəklikdən qaynaqlanır. Çünki kölgə insana nə qədər yaxın olsa da, heç vaxt onunla eyniləşmir, hətta onu ötüb keçə də bilir, amma yenə ona çatmır. Amma nə olur-olsun, kölgə öz orijinalından heç vaxt ayaq çəkmir, ayağı həmişə ayağımıza dolaşır. Mübaliğə qızın gerçəklikdən qaçmaq arzusunun şiddətini, onu izləyən gerçəklyin kölgə kimi qaçılmazlığı isə bu arzunun gerçəkləşməsinin mümkünsüzlüyünü ortaya qoyur. Qız xarici aləmdən sındığı kimi, daxilən də rahatlıq tapa

bilmir, çünki qloballaşma çağının çadrasız Leylisi robinzonad deyil, onun içinə ətrafdan çox şey sızır. Və o zaman bir yol qalır: içinə sızanları vərəqlər üstünə tökməklə onlardan yaxa qurtarmaq, kölgə kimi ayağına dolaşan gerçəkliyi heç olmasa, başından, ürəyindən çıxarmaq...

Həyatın son şeirlərində diqqəti çəkən metafizik qata yönəldiyi məqamlardır. Klassik dillə desək, bu, cismdən çıxıb cana, bədəndən ayrılıb ruha, surətdən keçib mənaya varmağın əlamətidir. Bu keçidlərin sonucu isə birdir: heç nə göründüyü kimi deyil, yaxud əsil həqiqət görünmür, əsas isə görüntü yox, mahiyyətdir. Çünki ziddiyyət və dramaturgiya görünən qatdadır, metafiziki qatda isə bunlar plazma kimi bir-birinə qarışıb həll olurlar. Heç nə məhv olmur, heç nə yoxa çıxmır, bir formadan başqa formaya keçir, hətta fikir kimi qeyri-maddi bir şeyin özü belə transformasiyalara uğrayır. Sevgisi rədd olmuşların unudulması da görünən qatdadır, görünməyən qatda isə bu sevgilər başqa formaya keçib əbədi lentə köçürülür:

Siz ey şəhərdə olanlar,
Siz ey səhərdə olanlar!
Gecəyə yığılanda
işıqlı fikirləri yandırmağı
unutmayın.
Azarsınız,
çəkisiz fikirləri
çəkməyi unudun.

Yox olmur fikir
unudulanda,
başqa hala keçir,
fikrin qəti və qatı halından
buxar halına.
Buxar görünmür axı…
Fikrində mən də varam,
unudulsam,
sadəcə, gözünə görünmərəm,
yadında saxla.

(«Plazma-2»)

Füzulinin Leylisi qaranlıq gecələri şam, Həyatın Leylisi isə yanar fikirlərlə səhər edir. Lakin orta əsr məhbubəsindən fərqli modern çağın intellektual gözəli daha dərin düşünür, hadisələrin təkcə görünən yox, həm də görünməyən qatını görür. Leyli öz aşiqinin «vəfasızlığının» altında duran metafizik mətləblərdən ölənəcən agah olmur, bunları bilən Füzulidir. Həyatın şeirində isə qəhrəmanla müəllif eyniləşir.

Klassik divan şeirinin dahisindən fərqli, Həyat platonik sevgi meyarları ilə düşünmür. İyirmi birinci əsr insanının qanadsız düşüncələri artıq ilahi aləmlərə varacaq gücdə deyil. O, öz düşüncəsində insani eşqlə vidalaşır, amma ilahi eşqə də varmır, fərdi «mən»dən keçir, amma bütün insanları özündə birləşdirən metafizik «mən»ə də yetmir, maddi dünyanın qanunlarından çıxır, amma kristal metafizikaya da çatmır bu ikisi arasındakı plazma qatında qalır. Və mühakimələrindəki sakit amansızlığa, daxili qururdan doğan təmkinə rəğmən, Həyatın qəhrəmanı bir şeyi gizləyə bilmir – o, vəfasız aşiqin unutqanlığını ilahi yazı kimi

qəbul etmədiyindən onu axıracan bağışlaya da bilmir. Unudulmasına elmi yozum vermək, fəlsəfi-metafizik profilaktikadan isə məqsəd birdir: özünə səbatü səbr təlqin etmək, cövrü cəfayə daha asan dözmək.

«Plazma-2» şeirindəki metafizik duyum Həyatın düşüncəsinə görünməyən qatdan düşən sızıntıdır. Əgər bu işıq zolağını tutub getsə, onun təkcə öz yaradıcılığı yox, ümumən poeziyamız üçün önəmli şeirlər yazacağına inanıram.

Mən bu yazıda Həyatın son dönəm şeirləri, özü də vur-tut bir neçə şeirindən və yazının həcmi məsələsini nəzərə alaraq fikirlərimi mümkün qədər qısaraq danışdım. Yəqin ki, o, özünün daha maraqlı şeirlərini hələ bundan sonra yazacaq. Xarakterində olduğu kimi şeirlərində də çiçək kövrəkliyi ilə qranit sərtliyini birləşdirən Həyatın timsalında şeirimizə maraqlı, düşündürücü şeirlər müəllifi olan bir şair gəlib. Özünün bütün duyğusallığı ilə bərabər həyatın sərt, amansız gerçəkliklərindən keçib gedən, istedadı elmlə, fərdin daxili aləmini toplumsal-siyasi tematika ilə, klassik bədii dil və ifadə vasitələrini modern forma axtarışları ilə sintez etməyi, konrketdə ümumi və ümumidə konkreti görməyi, insandan dünyaya və dünyadan insana baxmağı, dillə işləməyi, sözə çoxqatlı məna yükü vurmağı bacaran, ən nəhayət, olayların zahiri görüntüsü arxasındakı fəlsəfi, hətta metafiziki mahiyyətə varmağa çalışan bir şair.

Bütün səmimiyyəti ilə birgə Həyatın şeirlərində gizli bir daxili senzor müdaxiləsi də hiss edirəm. Yaradıcı adam isə ən böyük uğura «özünüifşa»nın ən yüksək həddində nail olur. Söz adamı özünü axıracan «ifşa» etməkdən utanmamalı, oxucu ilə özü arasın-

dakı yasaqları dəf etməyə güc tapmalıdır. Aydındır ki, insanın yalnız Allaha tam aça biləcəyi bir dünyası var. Onu da bilirəm ki, Həyat «böyük ədəbiyyat» adı altında hər cür antietik və antiestetik dəyməzləri («dəyər» sözünün antonimi kimi qəbul edin) təbliğ edən, ağlamağı zırıltı, gülməyi hırıltı ilə əvəz edən, yabançı «atəşlərə» yanan «pərvanə»lərdən deyil. Onun çoxəsrlik etik-estetik gələnəklər və bir də həyatdan alışan öz şəmi var. İnanır və arzu edirəm ki, bu şəm bundan sonra daha gur yanacaq. Ancaq bunu da bilirəm ki, səmimi hisslərin axıracan ifadəsindən onun oxucularının sayı ancaq arta bilərdi. Əgər belə olsa, Həyata ünvanladığım sual işarəsi də belini düzəldər və deyərdim - sən Banu Çiçəksən!